# Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!


DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

www.baki-xeber.com

24 APREL 2020-ci il

№ 64 (4195)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur


# QONDARMA «DQR»İN QONDARMA YENİ «PREZİDENT»İNİN 7 SƏRSƏM MADDƏSİ - HƏYASIZLIĞIN SON HƏDDİ: AZƏRBAYCANA HÜCUM EDƏCƏYİK...

■ səh. 5 ■

Koronavirusla dövlət mübarizə siyasəti ətrafında vətəndaşlar daha da fəallaşırlar - Prezidentə məktublarda yeni tezislər...

■ səh. 8-9 ■

Hikmət Hacıyevdən həmsədrlərə Azərbaycan adından konkret çağırış - daha qəti mövqe göstərməlisiniz...

■ səh. 3 ■

Qarabağ probleminin çözümündə mərhələli həllin işə düşdüyü təsdiqləndi - İrəvan təlaşda...

■ səh. 6 ■

Qarabağ probleminin həlli tarixində ilk videokonfrans - prosesdə köklü dəyişiklik nədən başlayacaq...

■ səh. 4 ■

Dünya neft böhranından çıxış üçün Azərbaycandan yeni ideya - OPEC+ formatından kənar ABŞ, Kanada, Norveç kimi ölkələr razı olacaqmı...

■ səh. 7 ■

Neft xaosunda Azərbaycanın digər hasilatçılardan daha əlverişli mövqedə olduğu üzə çıxdı

■ səh. 10 ■

Azərbaycanın dünya üçün tranzit əhəmiyyəti artır

■ səh. 11 ■



■ səh. 2 ■

## Azərbaycanda Prezident Siyasətinə Fəal İctimai Dəstək hərəkatının yeni mərhələsi - minlərlə müraciət nə deməkdir...



Ermənistanın Rusiyanı «200 il aldatmaq oyunlarının» sonu gəldi - «Qarabağ formatı dəyişməyəcək, qaz ucuzlaşmayacaq, təhlükəsizlik istəyirsinizsə...»

■ səh. 5 ■



Karantin bitəndən sonra cərimələrin guya silinəcəyi barədə şayiələr yayılır - ekspert rəyləri... «ziyanlı olar»...

■ səh. 13 ■

Koronavirusun «vurduğu» Azərbaycan sahibkarlarına daha bir güzəşt - əmlak və torpaq vergilərindən tam azad olunma...

■ səh. 12 ■

■ səh. 9 ■

Heydər Əliyev Fondu işə qarışmasaydı... - Müxalif partiya sədrinin oğlu daha nə dedi...



■ səh. 14 ■

Bəzi idxal ərzaqların ƏDV-dən azad edilməsi qiymətlərə necə təsir edəcək - insanların büdcəsi yükdən azacıq xilas ola bilər...



■ səh. 14 ■

Mikrosahibkarlar üçün vergi güzəştləri - sahibkarlığın inkişafında yenilik...



■ səh. 12 ■

Aqrar sahədə torpaq istifadəçilərinə cəmi 6 faizlik baza sosial sığorta...



■ səh. 15 ■

Koronavirus dünya ölkələrində mədəniyyət tədbirlərini də iflic etdi - Azərbaycanda isə... UNESCO-nun virtual konfransının göstərdiyi fakt...



**Koronavirus pandemiyası çoxsaylı insan ölümünə səbəb olmaqla yanaşı, dünya ölkələrini bir sıra iqtisadi, maliyyə, səhiyyə və sosial problemlərlə də baş-başa qoyub. Dünyanın aparıcı ölkələri belə hazırda pandemiyanın yaratdığı fəsadları aradan qaldırmaq, bu bəladan daha az itki ilə çıxmaq üçün yollar axtarırlar.**

*”Hesab edirəm ki, bu çox önəmli və dövlətimiz, xalqımız üçün uğurlu bir prosesdir”*

# Azərbaycanda Prezident Siyasətinə Fəal İctimai Dəstək hərəkatının yeni mərhələsi - minlərlə müraciət nə deməkdir...

***Seyid Camal Əzimbəyli:** ”Həqiqətən də Prezidentin siyasətinə ictimai dəstəyin yeni mərhələsi başlayır”*



Ancaq sevindirici haldır ki, düşünülmüş və məqsədyönlü siyasəti ilə nümunə olan Azərbaycan bu məsələdə də, müsbət mənada, digər dövlətlərdən fərqlənir.

Prezident İlham Əliyevin koronavirus pandemiyasının Azərbaycanda geniş yayılmasının qarşısının alınması istiqamətində gördüyü tədbirlər, verdiyi qərar və göstərişlər vətəndaşlar tərəfindən razılıqla, böyük rəğbətlə qarşılanır. Bu istiqamətdə atdığı qətiyyətli addımlara, göstərdiyi diqqət və qayğıya görə ölkənin müxtəlif bölgələrindən dövlət başçısının ünvanına minnətdarlıq məktubları gəlməkdə davam edir. Müşahidələr göstərir ki, sözügedən dəstək məktubları cəmiyyətin müxtəlif təbəqələrindən gəlir. Sadə insanlarla yanaşı, dini icmaların rəhbərləri, partiya sədrləri bu mövzuda yazaraq, ölkə başçısına təşəkkür edirlər. Bütün bunları Prezidentin siyasətinə Fəal İctimai Dəstək hərəkatının yeni mərhələsinin formalaşması prosesi kimi qəbul etmək olarmı?

Məsələyə münasibət bildirən şərqşünas Seyid Camal Əzimbəylinin sözlərinə görə, bütün bunları Prezidentin siyasətinə güclü ictimai dəstəyin yeni mərhələsinin formalaşması kimi qəbul etmək olar: "Ortada ciddi bir gerçəklik var. Gerçəklik ondan ibarətdir ki, ölkə ictimaiyyəti koronavirusla mübarizədə Prezident İlham Əliyevin apardığı siyasəti dəstəkləyir. Ölkə başçısının koronavirusun yayılmasına qarşı gördüyü tədbirlər, virusa yoluxanların müalicəsi, eləcə də sadə insanlara göstərdiyi diqqət və qayğı vətəndaşlar tərəfindən razılıqla qarşılanır, təqdir edilir. Prezident İlham Əliyev dünyada tüğyan edən koronavirus pandemiyasının Azərbaycanda geniş yayılmasının qarşısının alınması, insanların sağlamlığının qorunması istiqamətində çox böyük işlər görür. Əhalinin sosial rifahının yaxşılaşdırılması ilə bağlı verdiyi qərarlar vətəndaşlarımız tərəfindən böyük rəğbətlə qarşılanır. Görülən işlər dövlət başçısının xalqımıza diqqət və qayğısının bariz nümunəsi kimi qiymətləndirilir. Bunun nəticəsidir ki, ölkənin hər tərəfindən Prezidentə təşəkkür məktubları gəlməkdə davam edir. Həmin məktublarda insanlar səmimi şəkildə öz fikirlərini ifadə edirlər. Ölkə vətəndaşları bu diqqət və qayğıya görə dövlət başçısına təşəkkür edirlər. Bütün bunlar onu göstərir ki, həqiqətən də Prezidentin siyasətinə ictimai dəstəyin yeni mərhələsi başlayır. Hesab edirəm ki, bu çox önəmli və dövlətimiz, xalqımız üçün uğurlu bir prosesdir".

***Vidadi ORDAHALLI***

**Azərbaycanda yaşayan dini icma rəhbərləri dünyanı sarmış pandemiya kabusu üzündən yaşadığımız həssas dönəmdə xalqa göstərdiyi maddi və mənəvi dəstəyə görə Prezident İlham Əliyevə təşəkkür məktubu ünvanlayıb. Məktubda deyilir:**

# Azərbaycanın dini icma rəhbərlərini Prezidentə vahid müraciətə imza atmağa ruhlandıran əsas səbəblər...

Bir Olan Yaradanın adı ilə.

Möhtərəm cənab Prezident.

Biz, Azərbaycanda yaşayan dini konfessiya rəhbərləri ölkəmizin din xadimlərinin və dindarların iradəsini, həmçinin çox sayda müraciətlərini nəzərə alaraq Sizə - Azərbaycan xalqının ümummilli rəhbərinə və Birinci vitse-prezident Mehriban xanıma bu çətin dönəmdə həyata keçirdiyiniz böyük işlərə, nümayiş etdirdiyiniz xüsusi diqqətə, səmimi müraciətlərinizə, xalqa ünvanlı maddi-mənəvi dəstəyə görə dərin minnətdarlığımızı ifadə edirik. Bu bizim dini rəhbərlər olaraq mənəvi borcumuzdur və biz bunu təmsil etdiyimiz dini icmalar adından böyük məmnuniyyətlə bəyan edirik.

Zati-aliləri. Dünyanın mürəkkəb dövr yaşadığı, həyatın bütün sahələrində gərgin imtahanlardan keçdiyimiz bir zamanda biz yenə də Sizin şəxsiyyətinizin və dövlət xadimi olaraq əzəmətinizin şahidi olduq. Koronavirus bəlasının qarşısının alınmasında misilsiz əməyinizlə Azərbaycan xalqının yenilməz lideri, ümummilli dövlət xadimi kimi nəzərimizdə bir daha ucaldınız. Ulu Yaradanın lütfü ilə Siz insanlara ümid bəxş edən, həyatları xilas edən qəhrəman Vətən övladı timsalında xalqın qəlbində yer almısınız.

Möhtərəm cənab Prezident. Bütün səmavi dinlərdə bir insanı xilas etmək bütün bəşəriyyəti xilas etmək qədər yüksək dəyərləndirilir. Uca Yaradanımıza xoş gedən bu missiyanın reallaşması baxımından Sizin hər bir vətəndaşımızın həyatının qorunması uğrunda gecəli-gündüzlü mübarizə aparmağınız, öz nümunənizlə hamımızın birlikdə güclü olduğumuzu nümayiş etdirməyiniz tarixə həkk olundu. Dünyanın aparıcı dövlətlərinin belə qibtə edəcəyi çeviklik, operativliklə ərsəyə gələn yeni xəstəxanalar, ölkəyə gətirilən tibbi qurğular və zamanında verdiyiniz dəyərli qərar və Sərəncamlar sayəsində cəmiyyətimiz səfərbər edildi və Azərbaycanda xəstəlik üzərində qalibiyyətin bünövrəsi qoyuldu. Azərbaycanda koronavirusa yoluxma hallarının aşağı səviyyəsi, sağalanların daha çox sayda olması görülən böyük işlərin, davamlı və gərgin zəhmətlərin nəticəsidir. Həmçinin cənabınızın COVİD-19 pandemiyası ilə mübarizəyə beynəlxalq müstəvidə dəstəyi, müvafiq qurumlara, dünya birliyi ölkələrinə humanitar yardımı ölkəmizin ümumbəşəri bəla ilə mübarizədə real iştirakının bariz nümunəsi, bəşəri yardımlaşmaya gözəl örnəkdir. Zati-alilərinizin Azərbaycan həkimlərinin fədakar əməyinə verdiyi yüksək dəyərə biz də qoşulur, hökumətimizin, bütün aidiyyəti dövlət qurumlarının zəhmətlərini təqdirəlayiq qiymətləndiririk. Əminik ki, Sizin rəhbərliyinizlə görülən misilsiz tədbirlər, bu mürəkkəb dövrdə iqtisadi islahatların davam etdirilməsi yönündə səyləriniz, sosial rifaha dair addımlarınız və ən əsası, xalq-dövlət birliyi sayəsində Azərbaycan bu sınaqdan tezliklə uğurla çıxacaqdır.

Möhtərəm cənab Prezident. Biz, Azərbaycanın dini konfessiya rəhbərləri, təmsil olunduğumuz dünya dini liderlərinin nüfuzlu platforması olan Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin çoxsaylı üzvlərinin də iradəsini ifadə edərək, cənabınızın uzun illər ərzində ümumbəşəri əhəmiyyətli səmərəli fəaliyyətini, ələlxüsus, pandemiya dövründə bəşərin qorunması yönündə milli və qlobal müstəvidə atdığınız addımları təqdirəlayiq hesab edir, Sizi dünya miqyaslı lider və Azərbaycan millətinin qəhrəman oğlu kimi dəyərləndiririk.

Möhtərəm cənab Prezident. Biz bir daha Sizin ümumbəşəri bəla ilə fövqəladə mübarizənizə öz dəstəyimizi ifadə edirik. Dünya yəhudiləri üçün önəmli bayram olan Pesax, dünya xristianlarının müqəddəs Pasxa bayramı münasibətilə Cənabınızın və hörmətli Mehriban xanımın səmimi təbriklərinə görə dərin minnətdarlığımızı bildiririk. Uca Rəbbimizdən istəyimiz budur ki, Sizin siyasi uzaqgörənliklə, görkəmli dövlət xadimi olaraq həyata keçirdiyiniz fövqəladə işlər, xalqa bəxş etdiyiniz böyük ümid və dayaq Vətənimiz Azərbaycanın hər sahədə zəfərini təmin etsin, ölkəmizin tezliklə virus təhlükəsindən qurtulmasına rəvac versin. Dünya müsəlmanlarının mübarək Ramazan ayı ərəfəsində böyük ehtiram hissi ilə Sizə və ailənizə cansağlığı, xoşbəxtlik, şərəfli fəaliyyətinizdə uğurlar arzulayır, Uca Allahdan hər zaman yardımçınız olmasını diləyirik. O Bir Olan Yaradanımız Azərbaycan xalqını və bütün bəşəriyyəti hifz etsin. Amin.

***Dərin hörmət və ehtiramla,***
***Şeyxülislam Allahşükür Paşazadə***
***Qafqaz Müsəlmanları İdarəsinin sədri,***
***Aleksandr***
***Bakı və Azərbaycan Arxiyepiskopu,***
***Melih Yevdayev***
***Azərbaycandakı Dağ yəhudiləri icmasının rəhbəri,***
***Vladimir Fekete***
***Roma Katolik Kilsəsinin Azərbaycandakı Yepiskopu,***
***Robert Mobili***
***Alban-udi icmasının rəhbəri.***

# Hikmət Hacıyevdən həmsədrlərə Azərbaycan adından konkret çağırış - daha qəti mövqe göstərməlisiniz...

**Məlum olduğu kimi, Rusiyanın Xarici İşlər naziri Sergey Lavrov aprelin 21-də A.M.Qorçakov adına İctimai Diplomatiyaya Dəstək Fondunun üzvlərinin "dəyirmi masa"sında çıxışı zamanı Dağlıq Qarabağ münaqişəsi barədə danışıb.**


© Trend News

Problemin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin vacib olduğunu bildirən S.Lavrov öncə Qarabağ ətrafındakı rayonların azad edilməsi gərəkliyini vurğulayıb. Onun sözlərinə görə, yalnız ətraf rayonlar azad ediləndən, nəqliyyat, iqtisadiyyat və digər kommunikasiyalar blokadadan çıxarılandan sonra problemin həllinin ikinci mərhələsinə start vermək olar.

Ancaq Ermənistan Xarici İşlər naziri Zöhrab Mnatsakanyan Lavrovun açıqlamasına cavab verərək Azərbaycan ərazilərinin işğaldan azad edilməyəcəyini bildirib. Eyni zamanda, indiyə qədər aparılmış danışıqlar prosesi və münaqişənin mərhələli həlli ilə bağlı təklifləri rədd və inkar edib.

Bu arada, Prezidentin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Ermənistan Xarici İşlər nazirinin Rusiyanın Xarici İşlər naziri Sergey Lavrovun açıqlamasına cavabı ilə bağlı məsələni şərh edərək bunu pisləyib. H.Hacıyevin fikrincə, ATƏT-in Minsk Qrupunun həmsədrləri Ermənistanın bəyanatı ilə bağlı qəti mövqe ortaya qoymalıdırlar: "Ermənistan bu kimi dağıdıcı açıqlamalarla danışıqlar prosesindən çıxmaq məqsədini güdürsə, onda öz mövqeyini açıq bildirməlidir. ATƏT-in Minsk Qrupunun həmsədrləri də Ermənistanın bu kimi dağıdıcı mövqeyini qiymətləndirməli və öz mövqelərini ortaya qoymalıdırlar".

O baxımdan maraqlıdır, Azərbaycanın haqlı tələbinə Minsk Qrupu necə cavab verməli və nə etməlidir?

## *Fikrət Sadıqov: ”ATƏT-in Minsk Qrupu buna qəti, konkret və reallığa uyğun cavab verməlidir”*

Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqovun fikrincə, Minsk Qrupu Ermənistanın pozucu açıqlamasına sərt cavab verməli və bu ölkəni konstruktiv danışıqlara dəvət etməlidir: "ATƏT-in Minsk Qrupu buna qəti, konkret və reallığa uyğun cavab verməlidir. Ermənistanı sığallamaq yox, bu dövləti açıq şəkildə tənqid etməlidirlər. Çünki Mnatsakanyanın məlum açıqlaması bütün danışıqları pozur. Söhbət münaqişənin həlli zamanı Dağlıq Qarabağın statusundan gedirsə, bunun konkret mərhələləri var. Yəni işğal olunmuş ərazilərin azad edilməsi birinci növbədə gündəmdə olmalıdır. Reallıq odur ki, beynəlxalq hüququn norma və prinsiplərinə, Helsinki Yekun Aktına və əvvəllər əldə olunan razılığa uyğun qərar qəbul olunsun. Bu qərar mərhələli həll planıdır. Yəni işğal olunmuş torpaqlar azad olunur, kommunikasiyalar açılır, sonradan Dağlıq Qarabağın statusu ilə bağlı danışıqlar davam etdirilir. Minsk Qrupunun Ermənistanın pozucu hərəkətlərinə konkret mövqe bildirməməsi işğalçı tərəfə bu cür açıqlamalar verməyə müəyyən şərait yaradır. Ona görə də həmsədrlər daha kəskin reaksiya verib Ermənistanı yerində oturtmalıdırlar. Çünki ATƏT-in Minsk Qrupu münaqişənin həlli ilə bağlı vasitəçidir, görüşləri təşkil edir. Ermənistanın məlum davranışı həm də həmsədrlərə, daha dəqiq desək, onların vasitəçilik missiyasına qarşı yönəlib".

*”Ermənistanın məlum davranışı həm də həmsədrlərə, daha dəqiq desək, onların vasitəçilik missiyasına qarşı yönəlib”*

***V[illegible]adi ORDAHALLI***

# Azərbaycan Ermənistan XİN-in daha bir yalanını ifşa etdi



*”Ermənistanın münaqişənin mərhələli həllinə əsaslanan danışıqlar aparmadığını iddia edən açıqlaması çox gülüncdür”*

**Ermənistan XİN-in bu ölkənin 2018-ci ildən bəri münaqişənin mərhələli həllinə əsaslanan danışıqlar aparmadığını iddia edən açıqlaması, hətta bu bəyanatın yerli ictimaiyyəti sakitləşdirmək üçün verildiyi aydın olsa belə, çox gülüncdür.**

Ermənistan XİN-in dürüst şəkildə öz əhalisini münaqişənin həlli üzrə aparılan sülh prosesi barədə məlumatlandırması daha doğru olardı.

Baki-xeber.com xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin şərhində deyilir.

Şərhdə bildirilir ki, 2018-ci ildə bu ölkədə hakimiyyət dəyişikliyi baş verəndən sonra Azərbaycan və Ermənistan xarici işlər nazirləri səviyyəsində sonuncu 21 aprel tarixli video-konfrans da daxil olmaqla 10 görüş keçirilib: "Ermənistan XİN-in məntiqi ilə belə çıxır ki, iki ölkə naziri, eləcə də 3 ölkənin həmsədrləri, və xarici işlər nazirlərinin heç bir işi yoxmuş kimi birgə vaxt keçirib söhbətləşmək üçün görüşüblər?!

Azərbaycanın münaqişənin həlli prosesi və danışıqların əsas prinsipləri barədə mövqeyi ən yüksək səviyyə də daxil olmaqla, hər zaman səsləndirilib. Vasitəçilik missiyasını həyata keçirən ATƏT-in Minsk Qrupunun həmsədrlərinin də mövqeyi onların verdikləri bəyanatlarda, o cümlədən 2019-cu ilin 9 mart tarixli bəyanatda açıq şəkildə ifadə olunub. Bunların hamısında münaqişənin mərhələli şəkildə həll olunması elementləri aydın şəkildə görünür.

**Həmçinin, danışıqlar eyni formatda və eyni gündəlik üzrə davam edir. Belə olmasaydı, 21 aprel tarixində məlum bəyanatını səsləndirən Ermənistan xarici işlər naziri bir neçə saat sonra video-konfransda iştirak edib müzakirələrə qatılmazdı.**

Ermənistan xarici işlər nazirinin özünün də razılaşdırdığı kimi, əhalisini sülhə hazırlanması istiqamətində addımlar atması daha faydalı olar.

# Azərbaycanda daha 30 nəfərdə koronavirus aşkarlandı, 41 nəfər sağaldı




**Azərbaycanda daha 30 nəfərdə koronavirus aşkarlanıb, 41 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.**

Bu barədə Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Trend"ə məlumat verilib.

Bildirilib ki, hazırkı dövrədək ölkəmizdə 1548 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 948 nəfər müalicə olunaraq sağalıb, 20 nəfər vəfat edib, 580 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir.

Həmin şəxslərdən 16 nəfərin vəziyyəti ağır, 25 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

# Qarabağ probleminin həlli tarixində ilk videokonfrans - prosesdə köklü dəyişiklik nədən başlayacaq...

**Elşən Mustafayev:** *"Bunun fonunda Ermənistana təzyiqlər də arta bilər ki, konstruktiv mövqe sərgiləsin"*

**Məlum olduğu kimi, aprelin 21-də Ermənistanın Xarici işlər naziri Zöhrab Mnatsakanyan və Azərbaycanın Xarici işlər naziri Elmar Məmmədyarov arasında ortaq videokonfrans keçirilib. Müzakirələrdə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspişik də iştirak edib.**

ATƏT-in Minsk Qrupunun həmsədrləri (İqor Popov - Rusiya Federasiyası, Stefan Viskonti - Fransa və Endryu Şefer - ABŞ) mart ayının ortalarından etibarən uzaqdan tez-tez məsləhətləşmələr aparıblar. XİN rəhbərləri arasında keçirilən müzakirələr zamanı iştirakçılar qlobal səhiyyə böhranının regiona təsirini və regiondakı son hadisələri müzakirə ediblər.

Onlar, həmçinin, yanvarın 30-da Cenevrədə verilmiş birgə bəyanata uyğun olaraq, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesi ilə bağlı növbəti addımları nəzərdən keçiriblər. Qeyd olunub ki, nazirlərin üzbəüz görüşləri və Cenevrədəki razılaşmaya uyğun olaraq həmsədrlərin bölgəyə səfərləri təxirə salınıb. Buna baxmayaraq, bu məsələlərin həyata keçirilməsi üçün lazımi işlər davam etdirilir. Bəyanatda həmsədrlər atəşkəs rejiminə ciddi şəkildə əməl olunmasının və mövcud vəziyyətdə təxribatçı hərəkətlərdən çəkinməyin vacibliyini vurğulayaraq, tərəfləri gərginliyin daha da azaldılması üçün tədbirlər görməyə çağırıblar. Bundan əlavə, tərəflər ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin hazırkı şəraitdə davam etdirdiyi işlərdən məmnun olduqlarını bildirib, monitorinqlərin mümkün qədər tez bərpa edilməsinin vacibliyini vurğulayıblar. Bununla yanaşı, Rusiya Federasiyasının Xarici işlər naziri Sergey Lavrov 21 aprel tarixində keçirdiyi videokonfrans zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə aparılan danışıqlara dair bəyanat da səsləndirib. Bəyanatda münaqişəsinin həllində mərhələli yanaşmanın tətbiq olunması vurğulanıb. Lakin ardınca Ermənistanın xarici işlər naziri Zohrab Mnatsakanyan əraziləri boşaltmaq fikrində olmadıqlarını qeyd edib. Bu videokonfransdan sonra Qarabağ sülh prosesində ilk irəliləyiş və addım nədən ibarət olacaq?



Politoloq Elşən Mustafayev qəzetimizə bildirdi ki, Ermənistan növbəti dəfə qeyri-konstruktiv mövqe nümayiş etdirməkdən çəkinmədi: "Rəsmi İrəvan beynəlxalq hüququn norma və prinsiplərinə açıq-aşkar şəkildə hörmətsizlik nümayiş etdirir. Üzərinə beynəlxalq öhdəliklər götürən Ermənistan Respublikası qonşu Azərbaycana qarşı hərbi gücdən istifadə etməklə onun beynəlxalq tanınmış torpaqlarının beşdə birini işğal edib və bu ərazilərdə yaşayan bir milyondan artıq azərbaycanlını etnik təmizlənməyə məruz qoyub. Belə bir vəziyyətdə işğalçı ölkə olan Ermənistanın xarici işlər naziri Zohrab Mnatsakanyan danışıqlar prosesini imitasiya edir və münaqişənin həll olunması üçün konkret addımlar atmaqdan boyun qaçırır. Rusiyanın Xarici işlər naziri Sergey Lavrovun Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin mərhələli şəkildə, BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə əsasən həlli ilə bağlı verdiyi açıqlama ölkəmizin maraqlarına cavab verir. S.Lavrov çıxışında problemin həllinin birinci mərhələsi kimi Dağlıq Qarabağ ətrafındakı rayonların qaytarılması məsələsini ortaya qoyur ki, bu özü də problemin həlli istiqamətində atılan önəmli bir addımdır. İkinci mərhələdə isə Dağlıq Qarabağın özünün işğaldan azad edilməsi, Azərbaycanın nəzarətinə qaytarılması təmin olunur ki, bu da BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələrində əksini tapıb. Əslində S.Lavrovun bu açıqlaması çoxdan qəbul edilsə də, BMT-nin bu günədək icra edilməyən məlum qətnamələrinə diqqətin yönəldilməsi, problemin məhz bu qətnamələrin tələbləri çərçivəsində həlli məsələsinin gündəmə gətirilməsi baxımından olduqca əhəmiyyətlidir. Təbii olaraq Ermənistan buna çox mənfi və qeyri-konstruktiv reaksiya verib. Belə görünür ki, bəyanat Ermənistanı qıcıqlandırıb. Amma digər reallıq odur ki, Madrid və Kazan prinsipləri var. Bununla bağlı danışıqlar və görüşlər keçirilib. Yəni mərhələli həll arxa plana çəkilməyib. Hər zaman gündəmdə olub. Bu baxımdan da Rusiyanın yaxın zamnalarda fəallığı nəzərə çarpacaq. Çünki həllə bağlı yol xəritəsində konkret mövqe ortaya qoyulur. Təbii ki, bunun fonunda Ermənistana təzyiqlər də arta bilər ki, konstruktiv mövqe sərgiləsin. Əks təqdirdə, biz yenə imitasiya görərik. Ümumi prosesdə bir qədər fəallaşma nəzərə çarpır".

***Məhəmmədəli QƏRİBLİ***

# Lukaşenko koronavirusa görə Belarus sərhədlərini bağlamayacaq

**Belarus Prezidenti Aleksandr Lukaşenko koronavirus pandemiyasına görə sərhədlərin bağlanmayacağını bildirib. Trend-in məlumatına görə, A.Lukaşenko bunu hökumətin iclası zamanı deyib.**

O bildirib ki, pandemiya fonunda Belarus üç dəhliz boyunca insanların və yüklərin hərəkətini təmin edir: "Biz bağlanmağa hazırlaşmırıq, belə bir zərurət hələlik yoxdur. İnsanlara, yüklərə nəzarət edirik. Bu bizə asan və ucuz başa gəlmir, amma belə işləyirik".

A.Lukaşenko deyib ki, Rusiya sərhədləri bağlayarkən, bu addım Belarus iqtisadiyyatına mənfi təsir göstərdi.

O əlavə edib ki, dünya iqtisadiyyatı dörd ay ərzində tanınmaz hala düşüb: **"İllərlə mehriban münasibət quran, sərhədləri açan müttəfiqlər bu sərhədləri bir günün içində bağladı. Bu, bütün dünyaya aiddir. İndi bütün dünya iqtisadiyyatı həll olunmamış problemin təzyiqinə məruz qalıb".**

# Qondarma "DQR"in qondarma yeni "prezident"inin 7 sərsəm maddəsi - həyasızlığın son həddi: Azərbaycana hücum edəcəyik...

**Xəzər Teyyublu:** *"Həmin tələblərin heç bir hüquqi və məntiqi əsası yoxdur"*

**Separatçı "DQR"in yeni seçilən "prezidenti" Araik Arutyunyan Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı mövqeyini açıqlayıb və 7 bənddən ibarət sərsəm tələblər irəli sürüb. Saxta "prezident" qeyd edir ki, problemin həlli separatçı rejimin iştirakı olmadan mümkün deyil.**

O qeyd edib ki, onlardan kənar aparılan danışıqlardan çox narahatdırlar.

İrəli sürülən 7 bəndlik tələblərin çoxu saxta qurumun indiyə qədər olan "rəhbərləri" tərəfindən dəfələrlə səsləndirilib. Diqqətimizi mahiyyətcə gülməli və yeni olan tələblərdən biri çəkdi. Arutyunyan deyir ki, prosesdə güc tətbiqi olarsa, onlar kontr-zərbə endirməklə Azərbaycana əks-hücum edib, hərbi əməliyyatları bizim "öz ərazilərimizdə" aparacaqlar. Erməni mətbuatı vasitəsilə edilən bu hədə mahiyyət etibarı ilə çox cılız görünür. Arutyunyan məgər bilmir ki, hazırda qərar tutduğu ərazilər də Azərbaycan ərazisidir?

Klassik Xalq Cəbhəsi Partiyasının funksioneri Xəzər Teyyublu "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu, erməni həyasızlığının növbəti nümünəsidir:"Hər dəfə danışıqlar prosesində hansısa canlanma olanda, onlar belə avantüralara əl atırlar. Hazırda konkret hansısa addımalr atılmır. Ancaq hiss olunur ki, Lavrovun son bəyanatı erməniləri ciddi narahat edib. Buna görə də, yeni seçilən "saxta prezident" tələblər irəli sürüb. Onun tələblərinin hər hansı nəticəsi olan deyil. Çünki dəfələrlə erməni tərəfi separatçıları müstəqil tərəf kimi danışıqlar prosesinə cəlb etmək istəyib, lakin bu alınmayıb. Hətta beynəlxalq vasitəçilər belə bunun mümkünsüzlüyünü dəfələrlə vurğulayıblar. Arutyunyan gözəl bilir ki, onlar hazırda Azərbaycan torpaqlarındadırlar. Onların Azərbaycana cavab verəcək hərbi gücləri də yetərli deyil. Biz bunu aprel döyüşlərində gördük. Azərbaycanın bu danşıqlarda bir tərəf-müqabili var, o da Ermənistandır. Çünki bizim torpağımızı bir ovuc separatçı erməni deyil, məhz Ermənistan dövləti öz himayədarlarının dəstəyi ilə işğal edib. Bu ritorika həm də ciddi narahatlıqdan xəbər verir. Artıq gözləməyə, dözməyə zaman da qalmayıb. Azərbaycan məsələni konkretləşdirməlidir. Sülh danışıqlarında irəliləyiş yoxdursa, mütləq mənada biz hərbi yolla öz ərazi bütövlüyümüzü təmin etməliyik. Bunun üçün ölkədə vətənpərvərlik hissi də kifayət qədərdi.



Separatçıların yeni "başçıısının" 7 bənddən ibarət bəyanatını boş xülya sayıram. Çünki həmin tələblərin heç bir hüquqi və məntiqi əsası yoxdur. Belə sərsəm bəyanatların bir daha təkrarlanmaması üçün Azərbaycan mütləq mənada öz gücünü separatçılara və onların yeni "rəhbərinə" göstərməlidir".

*Məhəmmədəli QƏRİBLİ*

# Ermənistanın Rusiyanı "200 il aldatmaq oyunlarının" sonu gəldi - "Qarabağ formatı dəyişməyəcək, qaz ucuzlaşmayacaq, təhlükəsizlik istəyirsinizsə..."

**Rusiya xarici işlər naziri Sergey Lavrovun Dağlıq Qarabağ münaqişəsinin mərhələli həlli ilə bağlı açıqlaması Ermənistanda Paşinyan hökumətinin yenidən tənqid edilməsinə və Moskava sərt ittihamların səslənməsinə zəmin yaradıb. Lavrov Rusiyanın Ermənistana satdığı qazın qiymətinin artırılması barədə də danışıb.**



O deyib ki, Rusiyanın Ermənistana indiki qiymətlə qaz satmasının günahı onlarda yox, Ermənistandadır. Lavrov bildirib ki, Paşinyan hökuməti qazı onlardan hansı qiymətə alırsa, xalqa da o qiymətə satırlar.

Xatırladaq ki, Paşinyan hakimiyyətə gəldikdən sonra Ermənistan iqtisadiyyatında əsas söz sahibi olan Rusiya şirkətlərinin qanunsuz fəaliyyətinin hüquqi müstəvidə araşdırılmasına başlanıb. Müşahidəçilər bu ərəfədə Lavrovun Ermənistana qarşı görünən açıqlamalarını məhz bununla əlaqələndirir. Rusiya XİN rəhbəri bir daha xatırladıb ki, danışıqların indiki formatı qəbuledilləndir və başqa yeniliyə zərurət duyulmur:"Qəbul edilmiş qətnamələr məlum sənədlərdir. Onlar hərbi əməliyyatların qızğın dövründə qəbul edilib və hər şeydən əvvəl hərbi əməliyyatların tamamilə dayandırılmasını və danışıqlara keçilməsini nəzərdə tutub. Qətnamələrdə Azərbaycan Respublikasının ərazi bütövlüyü təsdiqini tapıb. Eyni zamanda, sənədlərdə müharibəni dayandırmaq və danışıqlara keçmək çağırışı da yer alıb. İndi danışıqların Bakı-Yerevan, ATƏT-in Minsk Qrupunun üç həmsədri və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi formatı müəyyən edilib. Bu, BMT Təhlükəsizlik Şurasının müharibəni dayandırmaq və razılığa gəlmək tələbini təcəssüm etdirən faydalı və yaxşı formatdır".

Göründüyü kimi, Lavrov hansısa üçüncü tərəfin bərabərhüquqlu tərəf kimi danışıqlar prosesində iştirakını mümkünsüz sayıb. Ermənistanda daxili vəziyyət də gərgindir. Əhali iki aydır ki, qaza və elektrik enerjisinə olan borclarını ödəyə bilmir. Bütün bunların fonunda Ermənistanın hakim dairələrində bir anti-Rusiya ovqatı yaranıb və bunu bəyanatlarında hiss etdirirlər. Onlar bütün bunları Rusiyanın açıq şəkildə Qarabağ məsələsində Azərbaycanın mövqeyini dəstəkləməsi ilə izah edirlər. Rusiyanın bu seçimi normaldır. Çünki Moskva görür ki, Azərbaycan həm haqlıdır, həm də regionda Ermənistandan daha əhəmiyyətli rola malikdir. Ermənistandakı hazırkı durum Rusiya ilə həmin ölkənin münasibətləri fonunda nələri üzə çıxarır?

Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bunu daha çox Rusiya ilə Qərbin arasında Ermənistan uğrunda aparılan mübarizə ilə əlaqələndirə bilərik: "Ermənistan sərt manevrlər etdiyi üçün Rusiya ona qarşı olan təzyiqləri get-gedə artırır. Xüsusilə də 2018-ci ildən, yəni Paşinyanın hakimiyyətə gəlişindən sonra bu proses daha da sürətlənib. Paşinyan Ermənistanın daxilində olan rusiyameyilli bütün qüvvələri zərərsizləşdirir. Köçəryanla bağlı vəziyyəti bilirsiniz, Serj Sarkisyan da hər an həbs edilə bilər, çünki barəsində cinayət işi var. Artıq katolikosla da bağlı vəziyyət gərgindir. Çünki o, Köçəryanla bağlı Paşinyana müraciət etdi. Onun müraciətinə əhəmiyyət vermədilər və bundan sonra katolikosa qarşı kampaniya başladı. Belə bir proseslər getdiyi üçün Rusiya öz təzyiqini göstərir.

Ən gözəl təzyiq vasitəsi də məhz Dağlıq Qarabağ münaqişəsidir. Lavrovun son mövqeyi Azərbaycanın açıq şəkildə müdafiə olunması anlamına gəldi. Buna görədir ki, Ermənistan XİN səviyyəsində çox sərt bəyanat verdi. Hətta bir az da irəli gedərək, Dağlıq Qarabağın ətrafındakı rayonları da özlərinin təhlükəsizlik zonası elan etdilər. Artıq Ermənistanın rəhbərliyi başa düşür ki, düzgün mövqe ilə razılaşmaq gərəkdir. Rusiya bunu başqa niyyətlə etsə də, yekunda proseslər bizim xeyrimizə cərəyan edir".

*Məhəmmədəli QƏRİBLİ*

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Qarabağ probleminin çözümündə mərhələli həllin işə düşdüyü təsdiqləndi - İrəvan təlaşda...

**Dağlıq Qarabağ münaqişəsi ilə bağlı son proseslər Ermənistan ətrafında halqanın daralmaqda olduğunu göstərir. Belə görünür ki, işğalçı ölkənin indiki Qarabağ siyasətini davam etdirməsi xeyli müşkül olacaq. Digər tərəfdən, zəbt edilmiş ərazilərin Azərbaycanın istədiyi kimi mərhələli şəkildə ölkəmizə qaytarılmasına dair planların da yaxın tezlikdə işə düşməsi gözlənilir.**

Hər halda, Rusiyanın xarici işlər naziri Sergey Lavrovun Qorçakov Fondunun təşkil etdiyi onlayn Dəyirmi masada Dağlıq Qarabağ münaqişəsinin nizama salınması haqda danışarkən səsləndirdiyi fikirlər də bu ehtimalı xeyli gücləndirdi.

Xatırladaq ki, həmin çıxışında Lavrov olduqca mühüm açıqlamalar verdi. Qeyd etdi ki, hazırda danışıqlar masasında Dağlıq Qarabağ münaqişəsinin mərhələli həllini təklif edən bir sənəd var. O, açıqlamasında BMT Təhlükəsizlik Şurasının erməni hərbi birləşmələrinin Azərbaycan torpaqlarından çıxarılmasını tələb edən qətnamələrinə toxunub və bildirib ki, Madrid sazişləri, Rusiya tərəfinin 2010-11-ci illərdə hazırladığı sənədlər, yəni "Kazan prinsipləri"i və keçən ilin aprelində Moskvada həmsədrlərin iştirakı ilə keçirilən Azərbaycan, Ermənistan, Rusiya xarici işlər nazirlərinin görüşündən sonra açıqlanan, hazırda fəal müzakirə olunan layihələr var:"Bütün bu sənədlər mərhələli yanaşma əsasında nizamlanmaya doğru irəliləməyi nəzərdə tutur, ilk mərhələdə ən aktual problemlərin həllini, Dağlıq Qarabağ ətrafındakı bir sıra rayonların azad edilməsini, nəqliyyat, iqtisadi və digər əlaqələrin blokadasının aradan qaldırılmasını ehtiva edir". Ermənistan mediası və ekspertləri bildirir ki, Rusiya Qarabağı Azərbaycana qaytarmaq tezisini yenidən gündəmə gətirdiyi üçün Lavrov indiki məqamda belə bir açıqlama ilə çıxış edib.

Erməni şərhçi Tevos Arşakyan yazır ki, Lavrovun bu bəyanatı İrəvan üçün yaxşı heç nə vəd etmir:"Lavrov münaqişənin nizama salınmasında niyə "mərhələli həll" variantından danışır, Azərbaycanın ərazi bütövlüyünü və BMT TŞ-nin qətnamələrini yada salır? Şübhəsiz, Rusiya yenidən öz geosiyasi planlarının icrasına çalışır. Ərazilərin qaytarılması hesabına Türkiyə ilə körpüləri gücləndirmək və Azərbaycanı öz ittifaqlarına doğru çəkmək istəyir. Buna görə də Qarabağın qaytarılmasına dəstək vermək niyyətindədir". Elə erməni politoloq Ara Vardanyan da eyni mövqe sərgiləyir. Onun sözlərinə görə, Ermənistan hakimiyyətinin reallığı təhrif etməyə çalışdığı bir vaxtda Azərbaycan zəbt edilmiş ərazilərin geri qaytarılması istiqamətində əməli addımlar atır:"Ermənistan hakimiyyəti danışıqların mövcud gedişinin dağıdıcı təsirini bildiyi üçün təxminən 2 il ucuz formalarla xalqı aldadırdı ki, Qarabağ məsələsində hansısa sənəd barədə danışılmır". O qeyd edib ki, lakin Rusiya xarici işlər naziri öz "sülh" qətnaməsini açıqladı: "O, biz müxalifətçilərin təxminən iki ildir danışdığımızı söylədi. Şübhəm yoxdur ki, hakimiyyəti zəbt etmiş "sülh" partiyası çox tezliklə siyasi ataları olan Levon Ter-Petrosyanın vaxtilə yaşadığı eyni aqibəti yaşayacaq". Ermənistanın eks-prezidenti Serj Sarkisyan da məsələyə münasibətini açıqlayaraq bildirib ki, mərhələli həll Ermənistan üçün dağıdıcı nəticələrə gətirib çıxara bilər:"2008-2018-ci illərdə mən və xarici işlər naziri Edvard Nalbandyan Qarabağ konfliktinin mərhələli həllini müzakirə etməmişik. Mərhələli həll variantının təhlükəsi ondan ibarətdir ki, hansısa məqamda tərəflərdən biri öz gözləntilərini əldə edə və prosesi davam etdirməyə bilər. Bu variant erməni tərəfi üçün həyati əhəmiyyət daşıyan "Qarabağ xalqı"nın öz müqəddəratını təyin etmə haqqını reallaşdırmaya bilər. Əvvəllər periodik olaraq paket həllin mərhələli reallaşdırılmasından söhbət gedirdisə, bu gün Moskvadakı Dəyirmi masada Sergey Lavrov çox dəqiq və birmənalı bəyanat verdi. Bu gün Ermənistan Xarici İşlər Nazirliyinin rəhbəri rusiyalı həmkarının yeni layihə haqqında bəyanatını təkzib etmədi".

Ermənistan parlamentinin keçmiş deputatı, "Daşnaksütyun" partiyasının funksioneri Lilit Qalstyan isə hesab edir ki, istənilən halda İrəvan Qarabağ məsələsində Azərbaycan və digər beynəlxalq güclərə müqavimət imkanını itirib:"Ermənistan ətrafındakı halqa daralır, hökumət isə daxili düşmənlər modelləşdirmək üçün uzaqgörən olmayan göstərişlə məşğuldur". Qalstyan qeyd edib ki, Lavrovun səmimiliyi ona təsəlli vermir, bu, Ermənistan üçün acı olsa da gözlənilən idi:"Siyasət soyuq hesablamanı sevir, maraqlar, institusional yaddaş, hörmət və irs üzərində qurulur. Siyasət elmdir: burada demək olar mikrocərrahiyyə kimi hər bir incəlik, detal vacib və həlledicidir. Amma Nikol Paşinyan iqtidarı hələ də bunu anlaya bilmir və bu gedişlə Qarabağ Azərbaycanın tərkibinə qayıdır". Erməni politoloq Suren Sarkisyan isə vurğulayır ki, Sergey Lavrovun bəyanatı Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin onlayn görüşündən əvvəl oldu və əslində, bu bəyanatla baş tutan danışıqlar prosesinə işıq tutdu. Onun sözlərinə görə, Rusiya tərəfi faktiki olaraq oyun kartlarını açdı və tərəflərin mərhələli variant ətrafında danışıqlar apardığını təqdim etdi:"Mərhələ-mərhələ həll edəndə də mərhələli variantın öz təhlükələri var, çünki problemi mərhələli həll edəndə əvvəlcə bir şeyi güzəştə gedirsən, sonra bunun qarşılığında qeyri-müəyyən müddətlik nəsə alırsan". Sarkisyan qeyd edib ki, mərhələli variant Ermənistan üçün əlverişsiz variantdır. Amma İrəvanın bununla razılaşmaqdan başqa çıxış yolu da yoxdur.

Ekspertlər də hesab edir ki, regionda geosiyasi durum, dünya miqyasında baş verənlər Ermənistanın işğal siyasətinin artıq dalana dirənməsinə gətirib çıxarır. Burada Rusiyanın prosesə yanaşması da mühüm rol oynayır. Rusiyalı analitik Stanislav Tarasov məsələyə bu prizmadan yanaşaraq qeyd edir ki, Rusiya tərəfi nə qədər "Lavrov planı"nın masada olmasını təkzib etməyə cəhd etsə də, onu məhz pandemiya dövründə aktivləşdirmək qərarı verib:"Moskva, İrəvanla olduğu kimi, Bakı ilə də məsləhətləşmələr aparıb. Azərbaycan və Ermənistan XİN rəhbərlərinin videokonfrans keçirməsi təsadüfi deyil. Böyük ehtimalla bu, müzakirə edilməli olan bir sıra vəziyyətlərlə bağlıdır. Məncə, Azərbaycan və Ermənistanın razılaşa biləcəyi mərhələ başlayır". Erməni siyasi ekspert Sarkis Artsruni də məsələyə eyni rakursdan yanaşır:"Dünya siyasətinin bir nömrəli mövzusu koronavirus və onun yaratdığı problemlərdir, xüsusən Rusiyadakı epidemik vəziyyət, yumşaq desək, yaxşı deyil. Bundan əlavə, rəsmi Moskva günlər və ya həftələr əvvəl, həmin koronavirusun yaratdığı pandemiyaya məhəl qoyulmadan KTMT tərəfindən qorunan Ermənistanın dövlət sərhədlərində atəşkəsin pozulmasına səssiz qalmışdı. Bu baxımdan, Moskvanın bölgədəki koronavirus faktorundan, xüsusən də Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesində təsirini artırmaq üçün istifadə etməyə çalışması, əvvəlki niyyətlərini yeniləyərək dəyişikliklər həyata keçirməsi barədə açıq bir təəssürat yaranır. Moskva mövcud vəziyyətdən "Lavrov planı" və ya onun dəyişdirilmiş formalarını irəli aparmağa təşviq etmək üçün istifadə etməyə çalışır". Elə proseslərin inkişafı Lavrovun niyə indi "mərhələli həll" variantından bəhs etməsini, BMT Təhlükəsizlik Şurasının qətnamələrini xatırlatmasını anlamağa imkan verir. Belə ki, koronavirus pandemiyası dünyada siyasi sistemləri də alt-üst etdi və beynəlxalq ekspertlərin proqnozlarına görə, yeni dünyada regional ittifaqlar ön plana çıxacaq. Güclü Qərb ittifaqlarının üzləşdiyi mənzərə fonunda bu perspektivlər aydın hiss olunur. Moskva anlayır ki, regional ittifaqın formalaşması, güclənməsi üçün Türkiyə və Azərbaycanın dəstəyi lazımdır. Rəsmi Ankara və Bakı dəfələrlə bəyan edib ki, istənilən əməkdaşlığın yolu Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasından keçir. Ruslar regional əməkdaşlıq platformasında hərbi bazalarının yerləşdiyi Ermənistanın da kənarda qalmaması, xüsusilə İranın çətiri altına keçməməsini istəyir. Və bunun yeganə yolu Qarabağ münaqişəsinin həlli, işğal faktorunun aradan qaldırılmasıdır. Bu baxımdan, Lavrovun məlum bəyanatını yeni prosesin başlanğıcı kimi görmək olar. Bütün qapıların bağlandığı, siyasi və iqtisadi dəstəyin kəsiləcəyi vəziyyətdə İrəvanın regional əməkdaşlıq platformalarında yerini almaq, Azərbaycan və Türkiyə ilə sərhədlərin açılması, iqtisadi dəstək əldə etmək, bir sözlə, mövcud olmaq üçün yeganə çıxış yolu ərazilərin qaytarılmasıdır. Burada İrəvan onu da nəzərə almağa məcburdur ki, ölkənin çətin vəziyyətdə olan iqtisadiyyatı koronavirus pandemiyasının yaratdığı çətinliklər fonunda daha ciddi zərbələr alır. Bu diurumda erməni diasporundan gələn ianələrin kəsilməsi də əlavə problemlər yaradır. Faktdır ki, ABŞ və Avropa erməni diasporunun güclü olduğu və Ermənistana iqtisadi dəstəyin gəlməsini təmin etdiyi coğrafiyalardır.

Amma ABŞ-da başlanan iqtisadi böhran pandemiya ilə daha da güclənir, Avropa isə koronavirus qarşısında məğlub vəziyyətdədir. Bu coğrafiyada milyonlarla insanın işsiz qalması, sosial-iqtisadi sistemin çökməsi erməni diasporunun da imkanlarını məhdudlaşdırır. Bununla yanaşı, işləmək üçün Qərb ölkələrinə üz tutan ermənilərin ailələrinə göndərdikləri və Ermənistanda əhalinin sosial təminatında əsas paya sahib olan pulların da kəsiləcəyi, ən yaxşı halda azalacağı istisna deyil. Eyni vəziyyət Rusiyada da yaşanır. İş yerləri bağlanır və hesablamalara görə, Rusiyada 2,5 milyon olan işsiz sayı 8 milyona qədər yüksələ bilər. Bu, Ermənistandan iş üçün Rusiyaya axışan və ailələrinə pul göndərən ermənilər üçün də çətin günlərin gəldiyi deməkdir. Artıq Rusiyadan Ermənistana pul göndərilməsi azalıb. Bu halda daha böyük tənəzzül yaşayan Ermənistan üçün işğal siyasətinin davamı əsl müşkülə çevrilib. İrəvan başa düşür ki, işğala son qoymasa, ölkəni daha çətin günlər gözləyir.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Preezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Dünya neft böhranından çıxış üçün Azərbaycandan yeni ideya - OPEC+ formatından kənar ABŞ, Kanada, Norveç kimi ölkələr razı olacaqmı...

**Azərbaycanın Energetika naziri Pərviz Şahbazov "OPEC+" razılaşmasında iştirak etməyən neft istehsal edən ölkələri neft hasilatının azaldılması prosesinə qoşulmağa çağırıb. Belə ki, Pərviz Şahbazov "OPEC+" ölkələrinin iştirakı ilə qeyri-rəsmi formatda keçirilən videokonfransa qatılıb.**




Konfransda neft bazarının hazırkı vəziyyəti və may ayından öhdəliklərin icrası ilə bağlı məsələlər müzakirə edilib. Energetika naziri müzakirələr zamanı "OPEC+" formatında təmsil olunmayan digər neft istehsalçılarını öhdəliklər götürməyə dəvət edib: ""OPEC+" tarixi missiya yerinə yetirir və müvafiq öhdəliklər götürüb. İndi isə "OPEC+"dan kənar neft istehsalçıları bu prosesə fəal şəkildə qoşulmalı və öz öhdəliklərini elan etməlidirlər".

O da məlumdur ki, koronavirus pandemiyası neft bazarını alt-üst edib. Neftin dünya bazar qiyməti kəskin şəkildə ucuzlaşıb. Belə vəziyyətdə bazarın stabilləşməsi üçün yalnız "OPEC+" ölkələrinin deyil, neft hasil edən bütün ölkələrin yekdil mövqe nümayiş etdirməsinə ehtiyac var. O baxımdan belə bir təşəbbüsün qaldırılması yaxşı təklifdir. Ancaq "OPEC+"dan kənar ölkələr buna gedərmi? Kim onları buna məcbur edə bilər? Burada söhbət ABŞ, Norveç, Argentina, Kolumbiya, İndoneziya, Misir, Çaddan gedir. Sözügedən ölkələr "OPEC+"dan kənar neft istehsalçılarıdır.

### *Fuad İbrahimov: "Hansısa formatda iştirak etməyən ölkələri buna məcbur etmək çətin məsələdir"*

Məsələyə münasibt bildirən iqtisadçı-ekspert Fuad İbrahimovun sözlərinə görə, "OPEC+"dan kənar neft istehsalçıların;n buna gedəcəyini demək çox çətindir: "Çünki vəziyyət çox mürəkkəbdir. Düzdür, neftin ucuzlaşması həmin ölkələrin də ziyanınadır. Çünki onlar da bundan itirirlər. Ancaq məsələ ondadır ki, bir sıra ziddiyyətlər ortaq mövqedən çıxış etməyə imkan vermir. Böhranın fundamental səbəblərindən biri bütün tərəflərin ortaq məxrəcə gələ bilməməsi ilə bağlıdır. Bəzən OPEC-in hansısa qərarları qiymətlərə təsir edə bilmir. Koronavirus pandemiyası bütün məsələləri bir-birinə qatdı. Elə bir vəziyyət yarandı, proseslər idarəolunmaz dəhlizə daxil olub. Problem ondadır ki, bu gün neftin qiymətini tənzimləmək üçün bir sıra alətlər işləmir. Birjalar koronavirusun təsiri altında qalıb. Belə vəziyyətdə hasilat azaldılsa belə, bunun bazara təsiri olmaya bilər. Ona görə də indiki vəziyyətdə bununla bağlı proqnoz vermək çox çətindir. Proqnozun üstələdiyi istiqamət ondan ibarətdir ki, hazırda OPEC-in və "OPEC+"un qərarları neftin qiymətinə təsir edə bilmir. Hesab edirəm ki, bütün tərəflər razılığa gəlsə, o zaman neftin qiyməti sabitləşə bilər.

### *"Gərək həmin dövlətlərin özü bunda maraqlı olsunlar"*

**Bununla yanaşı, koronavirusla bağlı vəziyyət düzəlsə, o zaman neftin qiyməti sabitləşər. Ona görə də başlıca amillərdən biri budur. Belədə Azərbaycan tərəfi çox yaxşı ideya irəli sürüb. Çünki bütün neft ölkələri hasilatı azaltmalıdırlar. Ancaq hansısa formatda iştirak etməyən ölkələri buna məcbur etmək çətin məsələdir. Gərək həmin dövlətlərin özü bunda maraqlı olsunlar".**

***Vidadi ORDAHALLI***

# Azərbaycanı yenidən qaralayanlar kimdir - 18 QHT bununla bağlı ictimaiyyətə müraciət etdi

**Hazırkı ictimai-siyasi durumla bağlı Vətəndaş Cəmiyyəti nümayəndələri Azərbaycan xalqına onlayn müraciət ediblər.**



Müraciəti onlayn şəkildə "Azadlıq Hərəkatçıları" İctimai Birliyinin sədri Təhmasib Novruzov, "Müharibə Veteranı Qadınlarına Sosial Yardım" İctimai Birliyinin sədri Radə Abbas, "Azərbaycan Vətən Müharibəsi Veteranları" İctimai Birliyinin sədri Füzuli Rzaquliyev, "Hüquqi və Demokratik İslahatlar Mərkəzi"nin sədri İlham Əliyev, "Erməni Təcavüzünün Tanıdılması" İctimai Birliyinin sədri Səriyyə Müslümqızı, "Sosial Rifah və Tədqiqatlar" İctimai Birliyinin sədri Əkrəm Bəydəmirli, Bakı Qazilər Birliyinin sədri Fuad Rzayev, "Regional Gender Mərkəzi" İctimai Birliyinin sədri Şərqiyyə Dadaşova, "Vətən Uğrunda Şəhid Anaları və Milli Qəhrəmanlar" İctimai Birliyinin sədri, şəhid anası Zərifə Əsgərova, "Miqrasiya Proseslərinin Tədqiqi" İctimai Birliyinin sədri, fəlsəfə elmləri doktoru Fəridə Vəliyeva, "İsmayıllı Yazarları" Ədəbi İctimai Birliyinin sədri, Əməkdar jurnalist Şahməmməd Soltanov, "Vətəndaşların Maariflənməsinə Ziyalıların Dəstəyi" İctimai Birliyinin sədri Famil Əzizov, "İraq-Azərbaycan Mədəni Əlaqələri" İctimai Birliyinin sədri Tahirə Məmmədova, "Demokratik Cəmiyyət və Qadın Hüquqları" İctimai Birliyinin sədri Mehriban Abdullayeva, "Mərhəmət" Kimsəsizlərə Yardım İctimai Birliyinin sədri İradə Polad, "Tərəqqi Sosial İnkişaf" İctimai Birliyinin sədri Telman Dadaşov, Xan Şuşinski Fondunun sədri Bəyimxanım Verdiyeva (Cavanşirova) imzalayıblar.

Müraciəti onlayn imzalayan QHT rəhbərləri qeyd edirlər ki, "COVID-19" adlanan, bütün dünyanı cənginə alan ümumbəşəri bəlanın tüğyan etdiyi bir zamanda müstəqil Azərbaycanın bu günü və gələcəyi ilə bağlı vətəndaşlara müraciət etməyi Vətəndaş Cəmiyyətinin nümayəndələri olaraq özlərinə borc biliblər. QHT rəhbərləri qeyd edirlər ki, həm ölkə daxilində, həm də ölkədən xaricdə bəzi qüvvələr tərəfindən dünyanın yeni düzənə girməsi ərəfəsində sərgilənən antimilli və antidövlət fəaliyyət onları belə bir müraciətlə çıxış etməyə vadar edib. "Sapı özümüzdən olub, dəstəyi anti-Azərbaycan qüvvələrin əlində olan bu ünsürlər, hətta koronovirusun tüğyan etdiyi günlərdə belə, nəinki fəaliyyətlərini təxirə salmamış, əksinə, bu məqamdan da öz iyrənc məqsədləri naminə yararlanmaq istəklərini ortaya qoymuşlar. Azərbaycan iqtidarının pandemiyadan sui-istifadə etdiyini, əsassız olaraq karantin tətbiq edildiyini iddia edən həmin ünsürlər bu gün nümunə göstərdikləri Avropa ölkələrində məhz vaxtında önləyici tədbirlərin görülməməsi ucbatından yaranmış durumla bağlı bir kəlmə də olsun danışmırlar. Belə çıxır ki, Azərbaycan hakimiyyəti də həmin ölkələr kimi gözləmə mövqeyi tutmalı imiş ki, nəticədə əhali gözəgörünməz bəlanın ağuşunda çapalamaq zorunda qalsın. Azərbaycan hakimiyyətinin az zaman daxilində bütün qüvvələri səfərbər edərək, ən zəruri addımlar atmaqla, inkişaf etmiş dünya dövlətlərindən fərqli olaraq, pandemiyanın genişlənməsinin qarşısını almasını təqdir etmək əvəzinə, bütün bunların "sui-istifadə" adlandırılması, ən azı şərəfsizlik və vicdansızlıqdır. ABŞ-da, Avropanın ən inkişaf etmiş ölkələrində insanlara ödənilən yardımın həcmini Azərbaycanda ödənilən yardımla uğursuz müqayisə isə onların nə qədər səbatsız olduqlarının təsdiqidir" - deyə müraciətdə qeyd edilir.

Müraciətdə qeyd edilir ki, həmin qüvvələr Azərbaycan dövlətinin, başda Prezident İlham Əliyev olmaqla, indiki iqtidarın yeni koronovirusun yayılmağa başladığı ilkin dövrdən mərhələlərlə həyata keçirdiyi düşünülmüş tədbirlər, atılan addımlar və bunun nəticəsində ölkəmizdə bu bəlanın geniş vüsət almasının qarşısının alınması, eyni zamanda, pandemiya ilə əlaqədar cəmiyyətin bütün təbəqələrinə dəymiş maddi zərərin dövlət hesabına ödənilməsi, zərərin minimuma endirilməsinə yönəlik səriştəli idarəetmə və bu məqsədlər üçün dövlət büdcəsindən milyardlarla vəsaitin ayrılması haqqında bir kəlmə də olsun danışmırlar.

"...Odur ki, indiki məqamda, koronovirus təhlükəsindən xilas olmaq üçün göstərdiyimiz çaba ilə yanaşı, hər bir Azərbaycan vətəndaşını antimilli şəbəkənin cəmiyyətə ayaq açmaması, gerçəklərin sadə əhaliyə izah edilməsi və onlarda mənəvi baxımdan daha yetkin mövqe formalaşması məqsədilə lazımi addımlar atmağa çağırırıq" - deyə QHT sədrlərinin onlayn imzaladığı müraciətdə deyilir.

***Xəbər xidməti***

# Koronavirusla dövlət mübarizə siyasəti ətrafında vətəndaşlar daha da fəallaşırlar - Prezidentə məktublarda yeni tezislər...

**COVID-19 pandemiyasının dünyanın bir çox ölkəsini iflic vəziyyətə saldığı məlumdur. Virusun dünya dövlətlərinə qəfil hücuma keçməsi nəticəsində bir çox dövlət aciz duruma düşüb. Bu da bəzi dövlətlərin vətəndaşından, vətəndaşın isə dövlətin həyata keçirilən proseslərdən xəbərsiz qalması, dövlət və vətəndaş arasındakı əlaqələrin itməsi ilə nəticələnib.**

Azərbaycanda isə mənzərə tamamilə fərqlidir və ölkəmizdə çox güclü vətəndaş-dövlət birliyi, həmrəyliyi mövcuddur. Dünyada pandemiyanın ilk təsirləri hiss edilməyə başlayarkən Azərbaycanda Prezident İlham Əliyevin tapşırığına əsasən, virusa qarşı önləyici tədbirlər həyata keçirilməyə başladı. Bu önləyici mübarizə tədbirləri nəticəsində isə Azərbaycan vətəndaşları arasında bu virusa kütləvi yoluxma halları baş vermədi, dövlət təcili surətdə prosesi nəzarətə götürdü. Əlbəttə, Azərbaycan dövlətinin bu yöndə həyata keçirdiyi tədbirlərin əsas məqsədi vətəndaşların sağlamlığının, təhlükəsizliyinin təmin edilməsinə nail olmaq olub. Dövlətimiz bu ali istəyinə nail olub desək, qətiyyən yanılmarıq. Bunu təkcə biz demirik, Azərbaycanın hər yerindən vətəndaşlar tərəfindən Prezidentə göndərilən məktublarda da bu barədə danışılır.

Koronavirusla dövlət mübarizə siyasəti ətrafında vətəndaşlar daha da fəallaşırlar.

Zərdab rayonunun Qoruqbağı kəndindən 80 yaşlı Mustafayev Mustafa Bədi oğlu Prezidentə yazır ki, özü və 68 yaşlı həyat yoldaşı karantin rejiminin bütün qaydalarına ciddi riayət edirlər. "Mənim 80, həyat yoldaşımın isə 68 yaşı var. Karantin rejiminə əməl edərək evdən çıxmırıq. Təqaüd və müavinətlər alsaq da, heç bir maddi sıxıntımız olmasa da, bu günlərdə xüsusi diqqət və qayğı ilə əhatə olunmuşuq. Teztez ərzaq yardımı, müxtəlif hədiyyələr alırıq" - deyə yazan M.Mustafayev əmindir ki, Prezidentin rəhbərliyilə tezliklə bu bəla ölkəmizdən ayaqlarını çəkəcək.

Masallı rayonundan ağsaqqallar, ziyalılar, ictimai fəallar adından Prezidentə məktub yazan Ələşrəf Niftiyev və Füzuli Abdullayev dövlətin əhalinin sosial rifahı naminə gördüyü işləri dəstəklədiklərini bəyan edirlər. "Siz Azərbaycanımızın xilaskarı Heydər Əliyevin yolu ilə gedərək ölkəmizi daim tərəqqiyə doğru aparırsınız. Siz dünyanı bürüyən amansız düşmən - koronavirusa qarşı uzaqgörən siyasətinizlə bu xilaskarlıq missiyasını davam etdirirsiniz" - deyə yazan Masallı sakinləri qeyd edirlər ki, Prezident həmişə xalqla bir yerdədir və xalq da ölkə başçısının bütün çağırışlarına, tövsiyələrinə əməl edir: "Biz Sizin qətiyyətli addımlarınızı bəyənir və tezliklə pandemiya üzərində qələbə çalacağımıza əminik".

Qaradağ rayonundan Azərbaycan Dövlət İqtisad Universitetinin tələbəsi, "UNEC Könüllüləri" təşkilatının sədri Vəliyev Orxan Fərmayıl oğlu Prezidentə yazdığı məktubda Azərbaycan gənclərinin Prezidentin qəbul etdiyi bütün qərarları dəstəklədiyini, fəaliyyətlərində onları rəhbər tutaraq addım atdıqlarını qeyd edir: "Əminik ki, Sizin uğurlu və düşünülmüş siyasətiniz biz azərbaycanlılara bütün çətin sınaqlardan çıxmağa kömək edəcək. Mən şəxsən öz adımdan və təhsil aldığım Azərbaycan Dövlət İqtisad Universitetinin tələbələri adından Sizə dərin minnətdarlığımı bildirirəm".

Zaqatala rayon sakini Rəhimov Famil Şamil oğlu isə Prezidentə ünvanladığı məktubda Prezidentin rəhbərliyilə həyata keçirilən dövlət tədbirlərini zaqatalalı gənclərin dəstəklədiklərini qeyd edir: "...Sizin xalqımıza etdiyiniz müraciətlər bizdə yüksək əhval-ruhiyyə yaradır. Bu gərgin və məsuliyyətli günlərdə etdiyiniz "Biz birlikdə güclüyük!" çağırışını biz Zaqatala rayonunun gəncləri yekdilliklə dəstəkləyirik... Tərəfinizdən koronavirus pandemiyası ilə bağlı görülən bütün tədbirlərə, vətəndaşların sağlamlığına və sosial rifahına göstərdiyiniz yüksək diqqət və qayğıya görə Sizə təşəkkür edirik".

Şabran şəhərindən şair-publisist Zakir Bayramlı da Prezidentin rəhbərliyi və təşkilatçılığı ilə respublikamızda koronavirusla bağlı xüsusi karantin rejimi üzrə görülən tədbirləri dəstəklədiyini yazır.

"Sizin sərəncamlarınız və verdiyiniz xüsusi tapşırıqlar əsasında vaxtında qabaqlayıcı tədbirlərin görülməsi nəticəsində ölkəmizdə bu qorxulu və dəhşətli pandemiyanın yayılması tempini xeyli aşağı salmaq mümkün olub. Karantin müddətində əhalinin normal yaşamasının və sosial rifahının təmin edilməsi üçün operativ və təxirəsalınmaz işlər həyata keçirilib. Bütün bunlar Sizin baş verəcək hadisələri qabaqcadan görmək bacarığınızdan, çətin və qorxulu situasiyaları qiymətləndirmək səriştənizdən, siyasi çevikliyinizdən və xalqa olan dərin məhəbbətinizdən irəli gəlir".

Kürdəmir rayonundan tələbə Həsənov Elmir Ağababa oğlu qeyd edir ki, hazırda bütün dünyanı hərəkətə gətirmiş yeni növ koronavirus pandemiyası ilə əlaqədar olaraq bütün dünya böyük narahatlıq içərisindədir. "Bəzi inkişaf etmiş dövlətlərin də pandemiya qarşısında aciz qaldığı dövrdə Azərbaycan dövlətinin həyata keçirdiyi məqsədyönlü tədbirlər virusun ölkəmizdə geniş yayılmasının qarşısının alınmasına səbəb olub: "...Çox az sayda bu cür təhlükəli virusa qarşı çevik reaksiya verən dövlətlər oldu. Bu dövlətlərdən biri də və bəlkə də birincisi bizim Azərbaycandır. Bu çevik addımların atılmasında Sizin tapşırıqlarınız və rolunuz danılmazdır. Bizim Azərbaycan xalqı uzun illər boyu bundan da böyük çətinliklərə qalib gələn dözümlü xalqdır və bu böyük xalqın Sizin kimi böyük siyasətçisi var".

Göygöl rayonundan Dünya Quliyeva, Almaz Verdiyeva, Sədaqət Şərifova, Mirux Cəfərova, Zərəngiz Məmmədova pandemiya ilə mübarizə sahəsində Prezidentin verdiyi bütün qərarları dəstəklədiklərini bəyan edirlər: "...Məlum vəziyyətlə əlaqədar verilən bütün qərarlarınızı dəstəkləyirik. Çünki bu, birbaşa bizim sağlamlığımızın qorunması üçün atılmış addımlardır. "Evdə qal" aksiyasında iştirak edən yaşlı və aztəminatlı təbəqənin nümayəndələri heç nədən korluq çəkmədilər. Bu cür qayğı və diqqətə görə Sizə təşəkkür edirik".



Onlar, həmçinin, qeyd edirlər ki, Göygöl rayonunun ahıl insanları və ağsaqqalları hər zaman Prezidentin daxili və xarici siyasətini dəstəkləyirlər.

Cəlilabad rayonunun Üçtəpə və Suluçeşmə kəndlərindən Baxışova Yaqut Abuzər qızı, Qürbətov Əlimməmməd Ağamoğlan oğlu Prezidentə yazdıqları məktubda ölkə başçısının pandemiya ilə mübarizədə milli həmrəylik, milli birlik amilinin əsas olması ilə bağlı mesajını dəstəklədiklərini yazırlar: "...Siz dəfələrlə vəziyyətin çox ciddi olduğunu, hər birimizin həmrəylik və birlik nümayiş etdirdiyi təqdirdə bu yoluxmaya qalib gələcəyimizi vurğulamısınız. Biz həm də bu qələbəni güclü, qayğıkeş, qətiyyətli Prezidentimiz olduğuna görə qazana biləcəyik... Biz ahıllar "Evdə qal" aksiyasına qoşularaq karantin rejiminin qaydalarına riayət edirik. Karantin rejimində olmağımıza baxmayaraq, daim Sizin və dövlət qurumlarının diqqət mərkəzindəyik. Hər gün bizlərə qayğı göstərilir və tələbatlarımız ödənilir. Biz ahıllar da göstərilən diqqət və qayğıya görə Sizə minnətdarıq".

Bakı şəhəri, Suraxanı rayon sakini Mənsimov Kamil Bayraməli oğlu Prezidentə yazır ki, Azərbaycan öz torpaqlarını azad etmək, Vətənimizin bütövlüyünü təmin etmək uğrunda xain, təcavüzkar, mənfur bir ölkə ilə neçə ildir mübarizə aparır, dövlət başçısının rəhbərliyilə görülən bütün işlər Azərbaycanı qələbəyə yaxınlaşdırır: "Bir neçə aydır isə ölkəmiz gözəgörünməz düşmənlə üz-üzə qalıb. Lakin Sizin qətiyyətiniz, yüksək təşkilatçılıq qabiliyyətiniz bu bəla üzərində də qələbəni qaçılmaz etdi. Sizin müdrik rəhbərliyinizlə hər iki cəbhədə minimum itkilərlə qələbə qazanacağımıza əminik.

Siz pandemiya ilə mübarizə üçün bütün imkanları səfərbər etdiniz. Dünyanın inkişaf etmiş ölkələrini diz üstündə çökdürən pandemiya Azərbaycanda uğurla həyata keçirilən qabaqlayıcı və səmərəli tədbirlər qarşısında təslim olaraq geri çəkilməyə başladı".

Ağcabədi rayonunda məskunlaşan Laçın rayonundan məcburi köçkünlər Şahverdiyev Süleyman Səməd oğlu, Əhmədov Sənani İzzət oğlu, Fərzəliyev Nüsrət Məhərrəm oğlu, Kərimov Mirzə Qənbər oğlu və İbrahimov Ədalət Kərim oğlu isə məcburi köçkünlərə göstərdiyi qayğı və diqqətə görə Prezidentə təşəkkürlərini bildirirlər:

*(Ardı 9-cu səh.)*

*(Əvvəli 8-ci səh.)*

"...Məcburi köçkünlərə xüsusi diqqət və qayğınızın nəticəsidir ki, bizim ailələr Ağcabədi rayonunda salınmış yeni qəsəbədə evlə təmin olunub. Bundan başqa, sosial izolyasiya tədbirləri ilə əlaqədar məktəblərin bağlanmasına baxmayaraq, övladlarımız təhsildən kənarda qalmır, televiziyalarda təşkil olunmuş onlayn dərslərdən yararlanırlar. Əməkhaqlarımız da vaxtında köçürülür".

Gəncə şəhəri, Yeni Gəncə qəsəbəsindən Mirzəyeva Sevinc Daşdəmir qızı, Tanrıverdiyev Fərid Vaqif oğlu, Əliyeva Ülviyyə Hümbət qızının məktubunda pandemiyaya qarşı kompleks mübarizə tədbirləri ilə yanaşı, bu bəlanın iqtisadi təsirlərinin azaldılması, xüsusilə aztəminatlı ailələr tərəfindən onun fəsadlarının hiss olunmaması üçün dövlətimiz tərəfindən iqtisadi və sosial sahələrdə də mühüm təşəbbüslərin irəli sürülməsini ciddi şəkildə dəstəklədiklərini bildirirlər.

Füzuli rayonu, Horadiz şəhərində milliyyətcə rus olan Nəsirova Olqa Stepanovna "...milliyyətcə rus olsam da, Azərbaycan Respublikasının vətəndaşıyam, cəbhə bölgəsində yerləşən Füzuli rayonunun Horadiz şəhərində yaşayıram. Sizin bu ağır və çətin günlərdə necə vicdanla işlədiyinizi, xalqın qayğısı ilə yaşadığınızı, daim insanların yanında olduğunuzu görürəm.

Sizin tapşırığınızla karantin dövründə aztəminatlı ailələrə 190 manat pul vəsaitinin ödənilməsi sübut edir ki, yürütdüyünüz siyasətin mərkəzində Azərbaycan vətəndaşı və onun rifahı dayanır. Biz füzulililər, hər zaman olduğu kimi, yenə də Sizin yanınızdayıq, Sizi dəstəkləyirik" - deyə məktubunda bildirir.

Qəbələ rayonundan Pərviz Sabirli Prezidentə yazdığı məktubda "...belə çətin bir dövrdə ölkə vətəndaşlarının qayğısına qalaraq və əhalinin sağlamlığını düşünərək atdığınız addımlara, o cümlədən, sahibkarlara verilən dövlət dəstəyinə, vergi güzəştlərinə, əhalinin həssas təbəqəsinə edilən yardımlara görə sonsuz minnətdarlığımızı bildiririk" - deyə qeyd edir. O, həmçinin, ölkəmizin çətin sınaq qarşısında olduğu bir dövrdə vətəndaşların Prezident ətrafında sıx birləşdiyini ifadə edir.

Füzuli rayonundan Məmmədov Ceyhun Bahadur oğlu da yazır ki, Prezidentin rəhbərliyilə həyata keçirilən bütün tədbirlər cəbhəyanı bölgədə yaşayan vətəndaşlar tərəfindən ciddi dəstəklənir: "...Cəbhə bölgəsində yaşayan füzulili məcburi köçkünlər olaraq inanırıq ki, Sizin və Mehriban xanım Əliyevanın gecəli-gündüzlü yorulmaz fəaliyyətiniz, müdrik və düşünülmüş qərarlarınız nəticəsində biz koronavirus epidemiyasına da qalib gələcəyik".

Kürdəmir rayon sakinləri Cəmalə İsmayılova və Yaşar Rəşidov isə öz müraciətlərində Kürdəmir rayonunda çalışan bütün müəllimlərin adından öncə təhsilə göstərdiyi qayğıya, sonra isə koronavirus pandemiyasına qarşı görülən tədbirlərə görə ölkə başçısına təşəkkür etdiklərini və Prezidentin rəhbərliyilə həyata keçirilən bütün tədbirləri dəstəklədiklərini qeyd edirlər: "...Həmçinin, dövlət tərəfindən əhali üçün bir sıra güzəştlər edilir, maddi dəstək göstərilir. Həmişə olduğu kimi, xalqın həyat şəraiti, rifahı, sosial vəziyyəti diqqətdə saxlanır.

Şəki şəhər sakini Baxışov Vüsal Bünyamin oğlu Prezidentə dəstək məktubunda yazır ki, son aylarda dünyanın 200-dən çox ölkəsinə yayılaraq 2 milyondan çox insanı yoluxduran koronavirusa qarşı Prezident İlham Əliyevin rəhbərliyilə Azərbaycanda aparılan ardıcıl siyasət nəticəsində bu gün, demək olar ki, ölkəmizdə xəstəliyin yayılmasının nəzarət altına alınmasına nail olunub. "...Pandemiyaya qarşı mübarizənin tərkib hissəsi olaraq, iqtisadi cəhətdən həssas qruplardan olan həmvətənlərimizə, sahibkarlara, aztəminatlı insanlara yönələn və hər gün miqyası genişlənən sosial siyasətiniz vətəndaşlarımızın güzəranının yaxşılaşdırılması üçün olduqca əhəmiyyətlidir".

Bakı şəhəri, Yasamal rayonundan Azərbaycan Milli Elmlər Akademiyası Azad Həmkarlar İttifaqının sədri, hüquq üzrə elmlər doktoru, professor Habil Qurbanov yazdığı məktubda Prezidentin rəhbərliyilə həyata keçirilən tədbirlərin AMEA əməkdaşları tərəfindən də dəstəkləndiyini qeyd edir: "... Biz, Azərbaycan Milli Elmlər Akademiyası Azad Həmkarlar İttifaqı koronavirus (COVID-19) pandemiyası ilə mübarizədə xalqın qayğısına bu qədər qalaraq işdən azad olunmaması, ixtisara salınmaması, əməkhaqlarının saxlanması, işsiz kimi qeydiyyata alınmış şəxslərə 190 manat məbləğində vəsaitin ayrılması, sahibkarlara maliyyə dəstəyinin göstərilməsi, kommunal ödənişlərdə güzəştlərin nəzərdə tutulması, digər sosial müdafiə üzrə ciddi addımların atılması barədə qətiyyətli tapşırıqlarınızı dəstəkləyir, ətrafınızda sıx birləşərək bütün işlərinizdə Sizlərin yanında olduğumuzu bildiririk".

Bakı şəhəri, Nərimanov rayonundan "AzərGeoMaş" Elmi İstehsalat Müəssisəsinin kollektivi adından Əliyev Əli Çingiz oğlu "Koronavirus pandemiyasının ölkə iqtisadiyyatına təsirinin azaldılması üçün Sizin tapşırıqlarınıza əsasən, müəssisəmizə olunan maddi yardıma görə Sizə dərin minnətdarlığımızı bildiririk" - deyə Prezidentə yazdığı məktubda vurğulayır.

Bakı şəhəri, Sabunçu rayonu, Maştağa qəsəbəsindən İsmayılov Samir Şahid oğlu isə dünyada pandemiyanın ciddi fəsadlar törətdiyi bir şəraitdə Prezident İlham Əliyevin rəhbərliyilə pandemiya ilə mübarizədə önləyici tədbirlərin həyata keçirilməsi nəticəsində Azərbaycan vətəndaşları bu virusun təsirinə az məruz qalıblar: "Bu da məhz ölkəmizdə qabaqlayıcı tədbirlərin görülməsi ilə bağlı aidiyyəti orqanlara verdiyiniz tapşırıqlar və bununla bağlı xüsusi karantin rejiminin tətbiq olunması ilə əlaqədardır. Ölkəmizdə koronavirusun geniş yayılma tempinin qarşısının alınması bizi çox sevindirir".

Şəki şəhərindən Balacayev İsmayıl Mustafa oğlu, İsmayılova Aişənur Rafiq qızı, Cəmilova Sevda Əşrəf qızı və Əsədullayev Zaur Ələddin oğlu "...Görünməyən təhlükəli düşmənlə mübarizədə atdığınız addımlar xalqımızı çox məmnun edir. Böyük ölkələrin bacara bilmədiyi işləri Azərbaycan Sizin sayənizdə məharətlə bacardı. Bu çətin günlərdə atılan qətiyyətli addımlar nəticəsində çox şükür ki, itkilərimiz minimum səviyyədədir. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə görülən tədbirlər də xüsusi alqışlara layiqdir. Xüsusi qrupa aid olan xəstələr üçün qanvermə aksiyasını çox müsbət qarşılayırıq".

Onlar, həmçinin, ağır günlərdə işləməyən insanlara birdəfəlik müavinətlərin verilməsini, bu insanların sayının 600 min nəfərə çatdırılmasını da təqdir edirlər.

Bakı şəhərindən Əlixanov Hüseyn də Prezidentə yazdığı məktubda ölkə başçısının pandemiyanın ölkəmizdə geniş yayılmasının, daha çox insan tələfatına səbəb olmasının qarşısının alınması istiqamətində həyata keçirdiyi tədbirləri dəstəklədiyini qeyd edir: "...Dünyanın bir parçası olaraq, ölkəmizin bu bəlanı yaşadığı ilkin dövrdə gördüyünüz təxirəsalınmaz təsirli tədbirlər öz nəticəsini verməkdədir. Heç də təsadüfi deyil ki, insanların həyat və rifahının Sizin üçün ən önəmli olduğu barədə çıxışlarınızda dəfələrlə etdiyiniz qeydlər reallıqla üst-üstə düşür. Vaxtında verdiyiniz göstərişlər və qəbul etdiyiniz qərarlar sayəsində xalqımız bəzi Avropa ölkələrinin qarşılaşdığı faciəvi halla üzləşmədi".

Vətəndaş, həmçinin, qonşu ölkələrlə sərhədlərdə gediş-gəlişin maksimum dərəcədə məhdudlaşdırılması, xarici ölkələrdən Vətənə qayıtmaq istəyən vətəndaşlarımızın xüsusi reyslərlə sistemli və ardıcıllıqla daşınmasının təmin olunması, minlərlə şəxsin karantində saxlanmaqla testdən keçirilməsi, Azərbaycanın bütün şəhər və rayonlarında xüsusi karantin rejiminin tətbiqi, hər kəs tərəfindən bu qaydalara riayət olunmasına ciddi nəzarətin təşkili, yoluxmaya meylli risk qrupuna aid insanlara, o cümlədən, tək yaşayan yaşlılara fərdi qaydada zəruri xidmətlər və yardımların göstərilməsi, küçələrin, eləcə də fəaliyyəti zəruri hesab edilən idarə, müəssisə və təşkilatların yerləşdiyi binaların dezinfeksiya olunması və çoxsaylı digər tədbir virusdan yoluxma hallarının artmasının qarşısının alınması istiqamətində dövlətin həyata keçirdiyi tədbirləri dəstəklədiyini qeyd edir.

***İradə SARIYEVA***

---

**Sosial şəbəkələrdə Azadlıq Partiyasının sədri Əhməd Orucun ailəsi adından oğlu Abdul Oruclunun Prezident İlham Əliyevə təşəkkür etdiyinə dair məlumat yayılıb. Təşəkkür məktubunda deyilir:**

# Heydər Əliyev Fondu işə qarışmasaydı... - Müxalif partiya sədrinin oğlu daha nə dedi...

## ***Abdul Oruclu:*** *"Açıq ürək əməliyyatı həm bahalıdır, həm də atamda qanaxma vardı"*



"Möhtərəm cənab Prezident! İcazə verin, ailəmiz üçün ən çətin anlarda - atam, Azadlıq Partiyasının sədri Əhməd Orucun səhhətindəki problemlər ucbatından düşdüyümüz çıxılmaz vəziyyətdə bizə etdiyiniz yardıma, göstərdiyiniz dəstək və qayğıya görə Sizə sonsuz minnətdarlığımızı bildirək. Sizə olan təşəkkür və rəğbətimiz sonsuzdur. Ölkəmizdə koronavirus pandemiyası ilə mübarizə aparılan bu gərgin şəraitdə bizə göstərdiyiniz xüsusi diqqət, müxtəlif siyasi baxışlara məhəl qoymadan atdığınız nəcib addım Sizin ən yüksək insani keyfiyyətlərə malik əsl lider olduğunuzu bir daha təcəssüm etdirir. Sizin və çox hörmətli Mehriban xanımın hər bir vətəndaşı düşünməsinin, ehtiyacı olan hər bir kəsin yardımına tələsməsinin bariz nümunəsini şəxsən gördük. Atamın həyatı ciddi təhlükə altında olduğu məqamda etdiyiniz əvəzsiz köməyi heç vaxt unutmayacağıq. Tanrı Sizi qorusun, cənab Prezident".

Məktubun Əhməd Orucun oğlu tərəfindən niyə yazıldığını və həmin ailədəki hazırkı vəziyyəti tam dəqiqləşdirmək üçün müəlliflə əlaqə saxladıq. Abdul Oruclu "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, məktub həqiqətən onun tərəfindən yazılıb:

"Mən ölkə rəhbərinə təşəkkür məktubu yazdım. Atamın sağlıq durumu yaxşı deyildi. Açıq ürək əməliyyatı keçirdi, səhv etmirəmsə, 5 damar dəyişib. Əməliyyat "Bakı Mediakal Klinaka"da keçirilib. Məlumat Fonda sızandan sonra onların müdaxiləsi oldu və əməliyyat keçirildi. Sözün düzü, atam hələ xəstəxanadan çıxmayıb. Mən buna qədər olan dəstəyi hiss etdim ki, təşəkkür ünvanladım. Vəziyyət eləydi ki, atamı əməliyyata götürmürdülər. Açıq ürək əməliyyatı həm bahalıdır, həm də atamda qanaxma vardı. Əməliyyat uğurla olub.

Bir həftədən sonra səhhətində olan stabilləşmə ilə bağlı nələrisə demək olacaq. Mən həkim olmadığım üçün bu prosedurun gələcəkdə necə olacağını tam dəqiq bilmirəm. Belə bir müraciətin olmasından atamın məlumatı yoxdur. Səhhəti düzələndən sonra özü də bu məsələyə münasibət bildirər. Bir daha əməyi keçənlərə minnətdarlığımızı bildiririk".

***Məhəmmədəli QƏRİBLİ***

**Neft bazarında real durumun təhlili hasilatın azaldılması istiqamətində proseslərin daha da sürətləndirilməsini tələb edir. Çünki bu olmayacağı təqdirdə, neft bazarında qiymətləri nəzərdə tutulan həddə tənzimləmək kifayət qədər çətin olacaq.**

# Neft xaosunda Azərbaycanın digər hasilatçılardan daha əlverişli mövqedə olduğu üzə çıxdı

Məsələ burasındadır ki, tələb kəskin azaldığından, indi hasil edilən nefti saxlamaq əsl müşkülə çevrilib. Neft anbarlarının demək olar hamısı doludur. Koronavirusun yayılması neftə olan tələbatı kəskin azaltdığından, tankerlərdə də nəticədə milyonlarla barrel neft qalıb. Xüsusən ABŞ-da neftlə bağlı acınacaqlı vəziyyət hökm sürür. Alıcı olmadığı üçün neft tankerləri Kaliforniya sahillərində rekord həcmdə - 20 milyon barrellik yüklə açıq dənizdə gözləməyə başlayıb. Üstəlik, yükü boşaltmağa da yer yoxdur. Bu rekord göstərici normal dövrdə qlobal miqyasda gündəlik neft istehlakının beşdə birini təşkil edirdi. "Reuters"in məlumatına görə, dünya miqyasında dənizlərdəki tankerlərdə 160 milyon barrel neft qalıb. Qeyd edək ki, 2019-cu ildə sutkada 100 milyon barrel olan neft tələbatı koronavirus səbəbindən bu ilin aprel ayında 70 milyon barrelə qədər azalıb. Bununla belə, qeyd olunan həcmdə də nefti saxlamaq xeyli çətinləşib. Hətta dünyanın ən böyük özəl neft anbar şirkəti olan və Rotterdamda yerləşən "Royal Vopak NV", demək olar ki, bütün depolama gücünü satıb. Şirkət treyderlərin xam neft və yanacaq anbarlarında, demək olar ki, boş yerin qalmadığını açıqlayıb. "Royal Vopak NV" şirkətinin baş maliyyə mütəxəssisi Gerard Paulides deyib: "Neft terminallarımızın mövcud olan bütün tutumu tamamilə satılıb".



Neft məsələləri üzrə ekspert, Xəzər Universitetinin professoru Fuad Rəsulov da qeyd edir ki, koronavirus pandemiyası ilə əlaqədar tətbiq edilən karantin rejimlərinə görə neftə tələbat azalıb və dünyada rezervuarlar dolub:"Yaxın zamanda iri neft hasilatçıları məcbur olub, bəzi neft yataqlarını konservasiya (dondurmaq) etməyə başlayacaq. Səudiyyə Ərəbistanı nefti gəmilərə dolduraraq dənizdə saxlayır. Hasilatçılar məcburdurlar ki, hasilatı kəskin şəkildə azaltsınlar. Hasilatçılar anbarların və alıcıların yoxluğu səbəbindən öz yataqlarını dondurmağa məcburdur. Hasil olunan neftin 70-75 faizi yanacağa sərf olunur. Amma bu gün koronavirus pandemiyası səbəbindən təyyarələr uçmur, qatarlar işləmir, gəmilər üzmür, avtomobillərdən istifadə edənlər azalıb". O bildirib ki, yaranmış durumdan daha çox böyük hasilatçılar əziyyət çəkir. Azərbaycaan kimi ölkələrdə isə durum, hələ ki, o qədər qorxunc deyil. Azərbaycanda hasil olunan neftin həcmi Səudiyyə Ərəbistanına, Rusiyaya, ABŞ-a və Meksikaya görə çox azdır:"Neftimiz qismən ölkədə emal olunur. Satışa gedən neft isə Bakı-Tiflis-Ceyhan boru kəməri ilə gedir və oradakı terminallarda yığılır. Azərbaycan hasilatı azaltmaq üçün öhdəlik götürüb. Transmilli şirkətlər də məcbur qalıb öz hasilatlarını azaltmağa başlayıb. Bizim xoşbəxtliyimiz ondadır ki, son illər Azərbaycan neftdən asılılığı azaltmaq, iqtisadiyyatın şaxələndirilməsi üçün çox böyük səylər göstərir".İstənilən halda isə hesab edlir ki, vəziyyətdən çıxış yolu üçün hasilat əhəmiyyətli dərəcədə azaldılmalıdır. Rusiyanın energetika naziri Aleksandr Novak da bunu mühüm hal sayır. Onun sözlərinə görə, neft bazarındakı yüksək volatillik dünyada neft anbarlarının dolu olması ilə əlaqədardır, bu vəziyyət hasilatın azaldılmasına dair OPEC+ razılaşmasının işə düşməsinə qədər davam edəcək:"Hazırda gördüyümüz bir çox, o cümlədən fyuçers müqavilələri üzrə spekulyativ məqamlar var. Bazar qeyri-müəyyən vəziyyətdədir. Bu, ilk növbədə, dünyada neft anbarlarının dolacağı proqnozları ilə əlaqədardır". Eyni zamanda, nazirin sözlərinə görə, dünya neft istehsalçılarının əldə etdiyi razılaşmanın işə düşməsi ilə bazarda vəziyyət yaxşılaşa bilər. Nazir vurğulayır ki, may ayında dünyada gündəlik neft hasilatın ümumi azalması təxminən 15-20 milyon barrel olsa neft qiymətlərində yüksəliş mümkündür.

Xatırladaq ki, 9 apreldə OPEC və qeyri-OPEC ölkələri nazirlərinin iclasında mayın 1-dən 2022-ci ilin aprelinədək gündəlik neft hasilatının üç mərhələ üzrə azaldılması barədə qərar qəbul edilib. Dünya neft bazarında balansın yaradılması və neftin qiymətinin sabitləşdirilməsi məqsədilə Azərbaycan da üzərinə yeni öhdəliklər götürüb. 2018-ci ilin oktyabr ayında gündəlik xam neft hasilatı 718 min barrel olan Azərbaycan yeni razılaşma çərçivəsində hasilatı həmin səviyyədən 164 min barrel azaltmalı olacaq. May-iyun aylarında Azərbaycan gündəlik xam neft hasilatını 554 min barrel həcmində saxlamalıdır. Hasilatln azaldılacağına dair xəbərlər fonunda neft qiymətləri cüzi də olsa artır. Elə Azərbaycan neftinin qiyməti də bahalaşıb. Belə ki, "Azeri Light" markalı neftin bir barrelinin qiyməti 0,8 dollar artaraq 16,61 dollar təşkil edib. Amma qiymətlərin daha yüksək həddə artaraq məqbul səviyyəyə çatması üçün hasilatın daha çox azaldılması vacib sayılır. Əslində, bir sıra hasilatçılar da bunu vacib sayır. Məsələn, Səudiyyə Ərəbistanı bildirib ki, ölkə OPEC+ formatının digər iştirakçıları ilə birgə neftin qiymətlərini tənzimləmək üçün əlavə addımlar atmağa hazırdır. Meksika prezidenti Andres Manuel Lopes Obrador neftin qiymətinin düşməsi səbəbilə ölkənin 200-dən çox quyusu olan 19 yeni yatağında neft hasilatını dayandırmağa hazır olduğunu deyib. İraqın neft naziri Tamir Qadban da hasilatı vaxtından əvvəl azaltmağa hazır olduqlarını bildirir. Azərbaycan isə hesab edir ki, OPEC+ formatından kənar ölkələr də hasilatın azaldılmasına dair konkret öhdəliklər götürməlidir.

***Nahid SALAYEV***

# Azərbaycanın dünya üçün tranzit əhəmiyyəti artır

**Dünya enerji bazarlarında baş verənlər hələ yaxın tezlikdə karbohidrogen resurslarının qiymətləri ətrafında müəmmalı bir durumun olacağını deməyə əsas verir. Bu şəraitdə neft hasi edən ölkələr üçün artıq fərqli gəlir mənbələrinin yaradılması ciddi zərurət kimi çıxış edir.**

Amma təbii ki, bunun üçün əvvəldən müvafiq zəminin formalşaması da əsas şərtdir.

Hazırda bir çox hasilatçı ölkələr üçün qeyd olunan xüsusda heç də əlverişli olmayan vəziyyət müşahidə edilir. Onların böyük əksəriyyəti neft amilindən əhəmiyyətli dərəcədə asılı durumdadır. Amma bu məsələdə hasilatçı ölkələrdən biri kimi Azərbaycanın daha əlverişli mövqedə olması müşahidə edilir. Ən azı o baxımdan ki, Azərbaycan ötən dövr ərzində qeyri-neft sektorunun müxtəlif qollarını uğurla inkişaf etdirə bilib. İndi ölkənin qeyri-neft sektorundan daha böyük həcmdə gəlirlər əldə etməsi də elə bununla bağlıdır.

O da məlumdur ki, qeyri-neft sektorunda Azərbaycanın uğurla inkişaf etdirdiyi sahələrdən biri də nəqliyyat sektoru, tranzit yükdaşımaların təmin edilməsidir. Belə görünür ki, qarşıdakı dövr ərzində bu istiqamətdə Azərbaycan daha böyük nailiyyətlərin müəllifi qismində çıxış edə biləcək. Hər halda, ölkəmiz üzərindən daşınan yüklərin miqdarının artımı da bunu aydın göstərir. Məsələn, İran yüklərinin Rusiya istiqamətində gedən hissəsinin artıq yarıdan çoxu Azərbaycandan keçir. İran-Rusiya Ticarət Palatasının sədri Hadi Taban da bildirir ki, İranın Rusiyaya ixrac etdiyi yüklərin 70 faizi Gilan vilayətindəki Astara gömrük-keçid məntəqəsindən daşınır. O qeyd edir ki, Azərbaycanla İran arasındakı Astara gömrük-keçid məntəqəsi İran üçün olduqca mühüm əhəmiyyət daşıyır:"İranın beynəlxalq ticarət əlaqələrinin inkişafında Azərbaycanla olan Astara gömrük qapısının rolu böyükdür. İran Rusiya, Ukrayna və Gürcüstanla ticarət əlaqələrini Azərbaycan üzərindən həyata keçirir. İranın ixrac malları tranzit yük kimi Azərbaycana daxil olur, buradan da adıçəkilən ölkələrə yola salınır. "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi çərçivəsində inşa edilən Qəzvin-Rəşt-Astara(İran)-Astara(Azərbaycan) dəmir yolu tam olaraq istismara verildikdən sonra isə Astara gömrük-keçid məntəqəsindən yalnız İran deyil, Körfəz və Cənub-Şərqi Asiya ölkələri də istifadə edəcək. Körfəz və Cənub-Şərqi Asiya ölkələri Avropa ilə ixrac-idxal əməliyyatları çərçivəsində yükləri İranın Bəndər-Abbas limanına göndərəcək. Buradan isə yüklər Qəzvin-Rəşt-Astara(İran)-Astara(Azərbaycan) dəmir yolu ilə Rusiya və Avropaya daşınacaq ki, bu da Azərbaycanın və digər tranzit ölkələrin iqtisadi inkişafına böyük təkan verəcək". Palata sədri onu da qeyd edib ki, hazırda koronavirus pandemiyası ilə əlaqədar Astara gömrük qapısı bağlı olsa da, ticarət əlaqələri davam edir:"Yüklər gömrük-keçid məntəqəsində ciddi şəkildə dezinfeksiya edildikdən sonra yola salınır. Bununla yanaşı, yüklər qəbul olunduğu məntəqədə də dezinfeksiya edilir".



İranın Azərbaycandakı səfiri Cavad Cahangirzadə də vurğulayır ki, Azərbaycanla İran arasında sərhədlərin bağlı olmasına baxmayaraq, iki ölkənin ticarət əlaqələri davam edir. O bildirib ki, Azərbaycanın böyük nəqliyyat potensialı var və iki ölkə arasında yüklərin tranzit daşınması sahəsində yaxın əməkdaşlıq əlaqələri mövcuddur. Diplomat diqqətə çatdırıb ki, iki qonşu ölkə "Şimal-Cənub" dəhlizi çərçivəsində dəmir yolunun inşasında da əməkdaşlıq edirr:"İki dövlət arasında iqtisadi əməkdaşlıq yüksələn xətt üzrə inkişaf edir. Buna misal olaraq Ərdəbil vilayətində birgə sənaye parkının yaradılması istiqamətində aparılan işi göstərmək olar". Məlumat üçün bildirək ki, təkcə ötən il Astara(İran)-Astara(Azərbaycan) dəmir yolu vasitəsilə İran 120 min 68 ton yük ixrac edib. İranın Astara Gömrük İdarəsinin rəisi Rəsul Ümidi bildirib ki, yüklər Azərbaycan üzərindən Rusiyaya və digər dövlətlərə göndərilir. İran Astarasından Azərbaycana və Azərbaycan üzərindən digər ölkələrə 2 min 158 vaqon yük ixrac, 3632 vaqon yük isə idxal edilib. R.Ümidi deyib ki, 2018-ci ildə Astara (Azərbaycan)- Astara (İran) dəmir yolu istifadəyə verildikdən sonra İranın bu istiqamətdə apardığı idxal-ixrac əməliyyatlarının həcmi də artıb. Onun sözlərinə görə, İran bu yolla kənd təsərrüfatı məhsulları və tikinti materialları ixrac edir.

Xatırladaq ki, Astara (İran) - Astara (Azərbaycan) dəmir yolu iki ölkənin dəmir yolları sistemini birləşdirib ki, bu da Azərbaycanın tranzit imkanlarını artırıb. Bu yol Qəzvin-Rəşt-Astara dəmir yolunun davamıdır və "Şimal-Cənub" dəhlizinin tərkib hissəsidir. "Şimal-Cənub" həm də Avropa ölkələrini Fars körfəzi ilə nəqliyyat baxımından birləşdirir. Cənub Şərqi Asiya və Körfəz ölkələrindən Avropaya daşınan yüklər İranın Çabahar və Bəndər Abbas limanlarına daxil olaraq, buradan Qəzvin-Rəşt-Astara (İran) - Astara (Azərbaycan) dəmir yolu ilə Rusiya və Avropaya daşınır. Bu arada xatırladaq ki, ötən ay da Hindistanın "Concor" nəqliyyat şirkəti ilə Rusiyanın Dövlət Dəmir Yollarına məxsus logistika şirkəti arasında yüklərin daşınmasında əməkdaşlıq haqqında müqavilə imzalandı. Sənədin imzalanmasından sonra "Concor" şirkətinin baş direktoru Kalyan Rama KİV nümayəndələrinə bildirdi ki, yaxın 3 ay ərzində İran və Azərbaycan vasitəsilə Hindistanın Rusiya ilə yükdaşımasının həcmi əhəmiyyətli dərəcədə artacaq. Şirkət rəhbəri onu da qeyd etdi ki, əvvəlki marşrutla müqayisədə yüklərin İran və Azərbaycan ərazisindən daşınması vaxta və nəqliyyat xərclərinə qənaət edəcək. Qeyd edək ki, müvafiq yüklər Hindistanın Mumbai limanından çıxaraq İranın Çabahar limanına, buradan isə Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolu ilə Rusiyaya daşınacaq.

Əks istiqamətdə də yüklər Rusiyadan Azərbaycanın İranla sərhədindəki Astara şəhərinə, buradan dəmir yolu ilə Çabahar limanına, oradan isə Hindistanın Mumbai limanına daşınacaq. Hər iki istiqamətdə yüklər Azərbaycan ərazisindən də keçəcək ki, bu da ölkəmizin büdcə gəlirlərinin artmasına, yeni iş yerlərinin yaranmasına və ümumilikdə əhalinin sosial vəziyyətinin əhəmiyyətli dərəcədə yüksəlməsinə təkan verəcək.

***Ramil QULİYEV***

# Koronavirusun "vurduğu" Azərbaycan sahibkarlarına daha bir güzəşt - əmlak və torpaq vergilərindən tam azad olunma...

**Məlum olduğu kimi, koronavirusla əlaqədar biznesin və sahibkarların ayaqda qala bilməsi üçün dövlətin dəstəyinə ciddi ehtiyacları vardı. Dövlət isə o dəstəyi ilk günlərdən göstərdi. İqtisadiyyat Nazirliyi tərəfindən Vergi Məcəlləsinə və "Sosial sığorta haqqında" Qanuna zəruri dəyişikliklərlə bağlı təkliflər hazırlanıb və artıq Milli Məclisə təqdim olunub.**

*"Sözügedən güzəşt dövlət və bələdiyyədən götürülən torpaqlara aiddir"*

**Ruslan Atakişiyev:** *"Bu dəyişikliklər koronavirus pandemiyası dövründə biznesin fəallığını qoruyub saxlayır, biznesin tamamilə dayanmasının qabağını alır"*

Təkliflər paketində geniş vergi güzəştləri və tətillər nəzərdə tutulur.

Koronavirus pandemiyasının bilavasitə təsir etdiyi fəaliyyət istiqamətləri üzrə vergi ödəyiciləri bu il ərzində əmlak və torpaq vergilərindən tamamilə azad ediləcəklər. Bura mehmanxanalar, turoperatorlar, sərnişindaşıma şirkətləri, idman-sağlamlıq, istirahət və əyləncə obyektləri, tədris və ixtisasartırma kursları, məktəbdənkənar təhsil müəssisələri, psixoloji mərkəzlər və s. daxildir.

Əmlak və torpaq vergisindən azad olunmaları ilə yanaşı, həmin sahələrdə fəaliyyət göstərən vergi ödəyicilərinə seçdikləri vergitutma metodundan asılı olaraq, bu il ərzində bir sıra yeni güzəştlərin verilməsi də nəzərdə tutulur. Belə ki, mənfəət (gəlir) vergisi rejimində fəaliyyət göstərənlərə əldə edilən mənfəətin 75 faizi miqdarında vergi güzəştləri veriləcək. Sadələşdirilmiş verginin ödəyicisi olan ictimai iaşə və sərnişin daşımaları fəaliyyəti həyata keçirən vergi ödəyicilərinə isə 50 faiz güzəşt verilməsi nəzərdə tutulur.

Bütövlükdə, qeyd olunan güzəştlər sözügedən sahələrin qorunmasında, həmin sahibkarlıq subyektlərinin ayaqda qala bilməsində necə rol oynayacaq?

Sözügedən məsələni dəyərləndirən İqtisadi Resursların Öyrənilməsi Mərkəzinin direktoru Ruslan Atakişiyev vergi güzəştlərinə müsbət prizmadan yanaşır. Onun fikrincə, pandemiyanın bilavasitə təsir etdiyi fəaliyyət sahələri üzrə vergi ödəyicilərinə 2021-ci il yanvarın 1-dək olan dövr üzrə əmlak və torpaq vergiləri üzrə tam məbləğdə vergi güzəştlərinin verilməsi nəzərdə tutulur: "Bu güzəşt dövlət və bələdiyyədən götürülən torpaqlara aiddir. Məsələn, əkin sahəsi dövlətdən, bələdiyyədən icarəyə götürülübsə, şəxsin yerləşdiyi ofis dövlətin əmlakıdırsa, o cümlədən, sənaye məhəllələrindəki yerlər gələn il yanvarın 1-dək icarə haqqından azad ediləcək.



Digər bir misal olaraq, kimsə bələdiyyə və yaxud dövlət torpağını götürüb taxıl əkirsə, o, ilin sonunadək icarə haqqı verməyəcək. İctimai iaşə və ölkədaxili sərnişindaşıma fəaliyyəti üzrə sadələşdirilmiş vergi məbləğinə 50 faiz güzəştin verilməsi də nəzərdə tutulur.

**Burada vergi 8 faizdir, indi bu 4 faizə düşəcək. Ümumiyyətlə, bu dəyişikliklər koronavirus pandemiyası dövründə biznesin fəallığını qoruyub saxlayır, biznesin tamamilə dayanmasının qabağını alır. Məqsəd odur ki, pandemiya dövründə biznes tam dayanmasın, ən azından, minimum səviyyədə fəaliyyət göstərsin və pandemiya bitdikdən sonra qısa bir zamanda bərpa oluna bilsin".**

***Vidadi ORDAHALLI***

# Aqrar sahədə torpaq istifadəçilərinə cəmi 6 faizlik baza sosial sığorta...

**Mövcud qanunvericilikdə mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən fiziki şəxslərin torpaq sahəsinin az və ya çox olmasından asılı olmayaraq, sabit olaraq hər bir əmək qabiliyyətli ailə üzvünə görə minimum əməkhaqqının 6 faizi miqdarında baza sosial sığorta haqqı nəzərdə tutulur.**

*"Kənd təsərrüfatı ilə məşğul olanların torpaq sahəsinin az və ya çox olmasından asılı olmayaraq, onlara sosial sığorta haqqı veriləcək"*

**Fuad İbrahimov:** *"Aqrar sahə ilə məşğul olanlara sosial sığorta haqqının ödənilməsi kənd təsərrüfatının inkişaf etməsinə səbəb olacaq"*

Minimum aylıq əməkhaqqı məbləğinin 250 manat məbləğinədək artırıldığını nəzərə alsaq, 5 hektaradək torpaq sahəsi və 4 nəfər ailə üzvü olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən fiziki şəxslər aylıq 60 manat məbləğində məcburi dövlət sosial sığorta haqqı ödəməlidirlər.

Kənd təsərrüfatı ilə məşğul olanların torpaq sahəsinin az və ya çox olmasından asılı olmayaraq, onlara güzəştin tətbiq edilməsi aqrar sahənin inkişaf etməsinə təkan verəcək.

İqtisadçı-ekspert Fuad İbrahimov qeyd etdi ki, Azərbaycanda koronavirus pandemiyası ilə mübarizədə görülən tədbirlər vergi ödəyicilərində sabahkı günə inam yaratdı, bu çətin vəziyyətdə tək olmadıqlarını, dövlətin onlara dəstək olduğunu hiss etdirdi:

**"Kənd təsərrüfatı ilə məşğul olanların torpaq sahəsinin az və ya çox olmasından asılı olmayaraq, onlara sosial sığorta haqqı veriləcək.**

Sosial sığorta qanunvericiliyinə təklif edilən dəyişikliklərdə mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən fiziki şəxslərin ailə üzvlərinin hər biri üçün məcburi dövlət sosial sığorta haqqı, torpağın sahəsindən asılı olaraq, minimum aylıq əməkhaqqının aşağı dərəcələrdə hesablanması nəzərdə tutulur.




**Bununla yanaşı, torpaq mülkiyyətçiləri tərəfindən sosial sığorta hesabatının verilməsinin sabit qəbzlə əvəzlənməsi də mümkün olacaq".**

Həmsöhbətimiz hesab edir ki, aqrar sahə ilə məşğul olanlara sosial sığorta haqqının ödənilməsi kənd təsərrüfatının inkişaf etməsinə səbəb olacaq.

***Günel CƏLİLOVA***

# Karantin bitəndən sonra cərimələrin guya silinəcəyi barədə şayiələr yayılır - ekspert rəyləri... "ziyanlı olar"...

## *Şəmsəddin Əliyev: "...heç perspektivi də yoxdur"*

**Karantin rejiminin qaydalarına hər bir vətəndaş ciddi riayət etməli olduğu halda, təəssüf ki, bəzi şəxslər bilərəkdən, yaxud bilməyərəkdən mövcud qadağaları pozurlar. Karantin rejimini pozan vətəndaşların bu hərəkətləri ilə bağlı isə qanunvericilikdə nəzərdə tutulan qaydalar çərçivəsində ölçü götürülür.**

İndiyə qədər bu istiqamətdə qaydaları pozduğuna görə kifayət qədər vətəndaş müxtəlif məbləğlərdə cərimələnib. Bu hadisədən nəticə çıxarmayan digər vətəndaşlar da onların yolunu gediblər, nəticədə isə özləri də cərimələniblər.

DYP karantin rejiminin pozulmasına görə 36 364 hərəkət iştirakçısını cərimələyib. Ölkə ərazisində tətbiq edilmiş xüsusi karantin rejimi ilə əlaqədar 22.04.2020-ci il, saat 00:00-dan 23.04.2020-ci il, 00:00-dək olan müddət ərzində DYP əməkdaşları tərəfindən görülmüş işlər barədə məlumat açıqlanıb.

DYP-dən mətbuata bildirilib ki, koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə tətbiq edilən xüsusi karantin rejiminin pozulmasına görə 22.04.2020-ci il, saat 00:00-dan 23.04.2020-ci il, 00:00-dək olan müddət ərzində respublikanın avtomobil yollarında nəqliyyat vasitələri ilə hərəkətdə olan 1 208 nəfər İnzibati Xətalar Məcəlləsinin 211-ci maddəsi ilə inzibati məsuliyyətə cəlb edilib.

Ümumilikdə, 01.04.2020-ci il tarixindən bu günədək respublikanın, o cümlədən, paytaxtın avtomobil yollarında xüsusi karantin rejiminin pozulmasına görə 36 364 hərəkət iştirakçısı inzibati məsuliyyətə cəlb edilib.

Onu da qeyd edək ki, ictimaiyyət arasında müxtəlif şayiələr dolaşır. Dolaşan şayiələrə görə, guya karantin rejimi başa çatdıqdan sonra karantin dövründə qaydaları pozan vətəndaşların cərimələri ləğv ediləcək. Hazırda cəmiyyətdə "cərimələrin ləğv ediləcəyi" ümidilə yaşayan və bu şayiəyə inanıb qaydaları pozmağa cəhd edənlər təəssüf ki, var.

Bir neçə gün öncə mətbuatda koronavirus pandemiyasının Azərbaycanda sürətlə yayılmasının qarşısını almaq üçün tətbiq edilən qaydalardan biri - zərurət olmadan və icazə almadan evdən çıxmağın qadağan olunmasına qeyri-ciddi yanaşanların olduğu haqda yazılmışdı. Qeyd edilirdi ki, bu qaydanı pozan şəxslər barəsində Daxili İşlər Nazirliyinin əməkdaşları tərəfindən cərimə protokolları tərtib edilir. Əksər şəxs İnzibati Xətalar Məcəlləsinin 211-ci maddəsinin minimum həddində, yəni 100 manat cərimə olunur. Lakin bəzi şəxslər bu prosedura ciddi yanaşmırlar.

Bəzi vətəndaşlar "yaz cəriməni, çıxım gedim. Onsuz da ödəməyəcəyəm" - deyirlər. Əslində isə onların cərimələri ödəməməsinə heç bir əsas yoxdur.

Bir neçə gün əvvəl Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin rəisi, polis polkovniki Ehsan Zahidov mətbuata açıqlamasında bu cür düşünənlərin səhvə yol verdiyini deyib. "Deyilənlər tamam yanlış və qeyri-ciddi fikirlərdir. Karantin rejiminin pozulmasına görə tətbiq edilən cərimələrin ödətdirilməsi mexanizmi mövcuddur" - deyə o bildirmişdi.

"Polisə Dəstək" İctimai Birliyinin sədri, tanınmış hüquqşünas Şəmsəddin Əliyev bizimlə söhbətində qeyd etdi ki, bu gün cəmiyyətdə karantin bitəndən sonra karantin rejiminin tətbiqi zamanı qaydaları pozduğuna görə cərimələnən vətəndaşların cərimələrin silinəcəyi ilə bağlı yalan məlumatların, şayiələrin heç bir əsası yoxdur. Ş.Əliyev hesab edir ki, bu şayiəni bu düşüncədə olan vətəndaşlar yayırlar. "Bəzi insanlar bir vətəndaş olaraq öz məsuliyyətini dərk etmək istəmir və qaydaları pozur, sonra da şayiə yayırlar ki, qadağanı pozanlar üçün tətbiq edilən cərimə karantindən sonra ləğv olunacaq. İctimai düşüncədə, şüurda "cərimələrin ləğv ediləcəyi" ilə bağlı şayiələr ayaq tutsa da, amma o yalanın yerimənsinin, irəliləməsinin heç bir hüquqi əsası yoxdur. Burada nüanslar belədir. Karantin rejiminin tələblərinin pozulmasına görə tətbiq edilən cərimələr mövcud İnzibati Xətalar Məcəlləsi ilə hüquqi status alır. 211-ci maddədən söhbət gedir. Bu maddənin bundan sonra ləğv edilməsi heç ağlabatan deyil və ümumiyyətlə, heç perspektivi də yoxdur. Çünki yalnız İnzibati Xətalar Məcəlləsinə, yaxud cinayət hüquq qanunvericiliyinə olan əlavə və dəyişikliklər zamanın tələbinə buraxılır. Amma bu gün polisin "Polis haqqında" Qanunun, "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunun, insan hüquqları ilə bağlı ölkənin konstitusion tələblərinə uyğun fəaliyyət istiqamətini həyata keçirməsi sadaladığım normativ-hüquqi aktlar əsasında tənzimlənir.

Ancaq bütün bunlardan sonra cəmiyyətdə karantin dövründə tətbiq edilən cərimələrin karantin başa çatdıqdan sonra ləğv ediləcəyi barədə yayılan şayiələrin heç bir əsası yoxdur. Çünki hüquqi-normativ sənədlər belə düşünməyə imkan vermir. Vətəndaşlara mesaj vermək istəyirəm ki, istənilən halda, polisin, qanunun tələbinə tabe olmaq hər bir Azərbaycan vətəndaşının borcudur. Orada fərqi yoxdur, bu karantinlə, yoxsa başqa bir halla bağlıdır. Əhalinin gur olduğu yerlərdə bəzi vətəndaşlar ictimaiyyətə hörmətsizlik hallarına yol verirlər. Bu, artıq xuliqanlıqdır. Polis əməkdaşı ona "dur" desə, o durmazsa, polisin, qanunun tələblərinə tabe olmamaq kimi məsuliyyətə cəlb oluna bilər. Burada inzibati məsuliyyət də, cinayət məsuliyyəti də ola bilər".

**Ş.Əliyev hesab edir ki, bütün hallarda, epidemiya əleyhinə karantin rejiminin tələblərini pozan və buna görə cərimələnən vətəndaşlar cərimələrini ödəyəcəklər, onları cərimələrin ləğv edilməsi məsələsi gözləmir: "Bütün vətəndaşlar karantin rejiminin tələblərinə əməl etməli, qanunları, qaydaları pozmamalıdırlar. Epidemiya əleyhinə karantin rejimini pozanlar isə "karantindən sonra cərimələr ləğv ediləcək" xəyalını birdəfəlik unutmalı və dövlətin qanunlarına riayət etməli, qanunları pozmamalıdırlar" - deyə Ş.Əliyev vurğuladı.**

*İradə SARIYEVA*



*"Epidemiya əleyhinə karantin rejimini pozanlar isə "karantindən sonra cərimələr ləğv ediləcək" xəyalını birdəfəlik unutmalı..."*

# Bəzi idxal ərzaqların ƏDV-dən azad edilməsi qiymətlərə necə təsir edəcək - insanların büdcəsi yükdən azacıq xilas ola bilər...

**Məlum olduğu kimi, koronavirus pandemiyasına qarşı mübarizə çərçivəsində bir sıra idxal məhsulları əlavə dəyər vergisindən (ƏDV) azad edilir. Bu barədə məsələ İqtisadiyyat Nazirliyinin hazırladığı pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə vergi güzəştləri və tətilləri mexanizmində bildirilir.**

*"İdxal olunan məhsullara vergi güzəştinin tətbiq edilməsi ölkə əhalisinin sosial durumunun pisləşməsinin qarşısını alacaq"*

***Pərviz Heydərov:** "Ölkə iqtisadiyyatının pandemiyadan daha az itkilərlə çıxması üçün dövlət dəstəyi zəruridir"*

Belə ki, koronavirus pandemiyasına qarşı mübarizə çərçivəsində zəruri olan tibbi avadanlıqlar və tibbi aksesuarlar, habelə əhalinin ərzaq ehtiyaclarının təmin edilməsi ilə bağlı bəzi ərzaq növlərinin, o cümlədən, uşaqlar üçün qida məhsullarının müddətli olaraq ƏDV-dən azad olunması nəzərdə tutulur.

Maraqlıdır, idxal məhsullarının ƏDV-dən azad olunması qiymətlərə necə təsir edəcək?

İqtisadçı-ekspert Pərviz Heydərov bildirdi ki, hazırkı şəraitdə istər ölkə iqtisadiyyatının, istərsə də vətəndaşların müvafiq dövlət dəstəyinə ciddi ehtiyacı var. Onun sözlərinə görə, ölkə iqtisadiyyatının pandemiyadan daha az itkilərlə çıxması üçün dövlət dəstəyi zəruridir: "Bu dəstək müxtəlif formalarda həyata keçirilə bilər. Məlumdur ki, dövlət başçısının müvafiq sərəncamı ilə dörd işçi qrupu yaradılıb. Bu işçi qrupları iqtisadiyyatın əsas istiqamətləri üzrə hökumətin hansı addımlar ata biləcəyini müəyyənləşdirmək üzrə çalışırlar. Bununla yanaşı, müxtəlif sahələr üzrə vergi güzəştlərinin tətbiq edilməsidir. Pandemiya dövrü ilə əlaqədər idxal olunan bəzi məhsullar ƏDV-dən azad olunur. Əlavə dəyər vergisindən azad olunan məhsullar sırasında tibbi avadanlıqlar da var: "Tibbi ehtiyaclarla bağlı müəyyən vasitələrin ƏDV-dən azad olunması isə real şəraitdə tələb olunan əsas şərtlərdən biridir. Ölkə daxilində hökumət qarşısında iki mühüm vəzifəni yerinə yetirmək problemi mövcuddur.



Birincisi, epidemiya ilə bağlı əhalinin sağlamlığını qorumaqdır. İkincisi isə ölkə əhalisinin sosial durumunun pisləşməsinin qarşısını almaqdır. Bu iki vəzifənin həyata keçirilməsi ciddi yanaşma tələb edir. Əhalinin sağlamlığının qorunması məqsədilə hansı istiqamətdə addımlar atmaq lazımdırsa, orada geniş miqyasda güzəştlərin tətbiqi mümkündür. Amma vətəndaşların sosial durumunu düzəltmək üçün tətbiq olunacaq güzəştlər və atılacaq addımlar elə olmalıdır ki, pandemiya təhlükəsi sovuşduqdan sonra ölkə iqtisadiyyatı tez zamanda bərpa oluna bilsin".

***Günel CƏLİLOVA***

# Mikrosahibkarlar üçün vergi güzəştləri - sahibkarlığın inkişafında yenilik...

**Xəbər verildiyi kimi, Azərbaycanda bütün mikrosahibkarlar üçün vergi güzəştləri tətbiq ediləcək. Koronavirus pandemiyasının təsirinə məruz qalıb-qalmamasından asılı olmayaraq, bütün mikrosahibkarlar üçün güzəştlərin verilməsi nəzərdə tutulur.**

*"Sahibkar hesabladığı vergini büdcəyə ödəmir, öz sərəncamında saxlayır"*

***Vüqar Bayramov:** "Vergi güzəştləri sahibkarların postpandemiya dövründə öz fəaliyyətlərini daha qısa zamanda bərpa etməsinə imkan verəcək"*

Bu, İqtisadiyyat Nazirliyinin hazırladığı pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə vergi güzəştləri və tətilləri mexanizmində bildirilir.

Mikrosahibkarlara sadələşdirilmiş vergi üzrə 50 faiz güzəştin verilməsi (verginin dərəcəsi 2 faizdən 1 faizə salınır), 2020-ci ilin birinci və ikinci rübü üzrə sadələşdirilmiş vergi hesabatının və mənfəət (gəlir) və əmlak vergiləri üzrə hesabatların verilməsi və hesablanmış verginin büdcəyə ödənilməsinə cari ilin sentyabr ayının 1-dək vergi tətilinin verilməsi nəzərdə tutulur.

Həmçinin, Nazirlər Kabinetinin qərarı ilə müvafiq fəaliyyət növlərinin tam və ya qismən məhdudlaşdırıldığı müddət sabit qəbz almaqla fərdi qaydada məşğul olan vergi ödəyiciləri tərəfindən əldə etdikləri qəbzlərin qüvvədəolma müddətinə daxil edilməməsi və ödənilmiş vergilərin növbəti dövrlərin ödəmələrinə aid edilməsi nəzərdə tutulur.

Ekspertlər hesab edirlər ki, mikrosahibkarlar üçün vergi güzəştlərinin tətbiq edilməsi kiçik və orta sahibkarlığın inkişaf etməsinə səbəb olacaq.

Millət vəkili Vüqar Bayramov bildirdi ki, vergi güzəştləri həm pandemiya, həm də postpandemiya dövründə sahibkarlara bu cür güzəştlərdən istifadə etməklə, həm xərclərini minimumlaşdırmaq, həm də iqtisadi aktivliyi daha qısa zamanda bərpa etmək imkanı verəcək: "Güzəştlər mikromüəssisələr də daxil olmaqla, praktik olaraq, bütün sahibkarlıq subyektlərini əhatə edir. Sadələşdirilmiş vergi subyektləri üzrə vergi dərəcələrinin iki dəfə azaldılması həyata keçirilir. Eləcə də sahibkarlar üçün mənfəət və gəlir vergisində 75 faizlik güzəşt tətbiq edilib. Digər tərəfdən, torpaq və əmlak vergisində müddətli güzəştlər var. Praktik olaraq, güzəştlərin strukturuna və miqyasına diqqət yetirəndə birmənalı şəkildə qeyd etmək olar ki, bu güzəştlər sahibkarların postpandemiya dövründə öz fəaliyyətlərini daha qısa zamanda bərpa etməsinə imkan verəcək".



V.Bayramov onu da vurğuladı ki, vergi güzəştləri, əslində, dövlətin dolayı maliyyə dəstəyi kimi də qiymətləndirilir. Çünki bu zaman artıq sahibkar hesabladığı vergini büdcəyə ödəmir, öz sərəncamında saxlayır. Bu da onun fəaliyyətinin genişləndirilməsinə imkan yaradır. Ölkə prezidentinin tapşırığına uyğun olaraq, postpandemiya dövründə sahibkarlar dövlət dəstəyindən daha çox faydalana biləcəklər. Yeni vergi güzəştlərinin təmin edilməsi iqtisadiyyatın leqallaşdırılması və daha liberal iqtisadiyyatın formalaşdırılmasına imkan yaradacaq. Atılan addımlar, tətbiq edilən güzəştlər bu kontekstdə postpandemiya dövründə Azərbaycanda yeni iqtisadi modelin tətbiq ediləcəyindən xəbər verir.

***Günel CƏLİLOVA***

# Koronavirus dünya ölkələrində mədəniyyət tədbirlərini də iflic etdi - Azərbaycanda isə... UNESCO-nun virtual konfransının göstərdiyi fakt...

**Aydın Xan Əbilov:** *"Azərbaycanın virtual məkana çevik adaptasiya olunmasının əsas səbəblərindən biri..."*

**Koronavirus pandemiyası bütün sahələrə, o cümlədən də mədəniyyət sahəsinə ciddi zərər vurub. Pandemiya ilə əlaqədar olaraq bütün beynəlxalq mədəniyyət layihələrinin, konsertlərin, tədbirlərin təxirə salındığı haqda qərarlar qəbul edilib. Bu gün, demək olar ki, dünya ölkələrində bu səpkidə tədbirlər keçirilmir.**

Azərbaycanda mədəniyyət layihələrinin həyata keçirilməsi səbəbini şərh edən Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin rəhbəri, yazıçı-kulturoloq Aydın Xan Əbilov "Bakı-Xəbər"ə bildirdi ki, vacib qadağalar insanları evdə qalmağa, evdə yaratmağa, evdən cəmiyyətə faydalı olmağa sövq edir. Bilirsiniz ki, artıq Azərbaycanda mədəniyyətlə bağlı layihələrin icrası, o cümlədən də

Məlum olduğu kimi, UNESCO-ya üzv dövlətlərin Mədəniyyət nazirlərinin ilk virtual görüşü keçirilib. Nazirlərin virtual görüşünün təşkilində əsas məqsəd COVID-19 pandemiyasının mədəniyyət sahəsinə təsiri, eləcə də bu çərçivədə görülən tədbirlərlə bağlı nazirlər arasında fikir mübadiləsinin aparılması olub. Görüşdə dünyanın 180-dən çox ölkəsindən nazirlər və digər yüksək səviyyəli rəsmilər iştirak ediblər.

Mədəniyyət Nazirliyindən "Bakı-Xəbər"ə verilən məlumata görə, COVID-19 pandemiyası ilə bağlı dünyada yaranmış vəziyyət bir çox sahə kimi, mədəniyyət sahəsinə də təsirsiz ötüşməyib, mədəniyyət məkanlarına gediş məhdudlaşdırılıb, əksər mədəni tədbir təxirə salınıb və ya ləğv olunub.

UNESCO Mədəniyyət nazirlərinin birinci virtual görüşündə çıxış edən Azərbaycan Respublikasının Mədəniyyət naziri Əbülfəs Qarayev öncə pandemiya dövründə Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyilə ölkəmizdə həyata keçirilən tədbirlər barədə danışaraq, ölkə başçısı tərəfindən imzalanan müvafiq sərəncamlar haqqında məlumat verib. Bu sahədə dövlət qurumlarının fəaliyyətini əlaqələndirən Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargahın gərgin fəaliyyəti sayəsində ölkəmizdə pandemiya ilə bağlı vəziyyətin vaxtında nəzarətə götürüldüyü və xəstəliyin geniş yayılmasının qarşısının alındığı diqqətə çatdırılıb.

Xüsusi karantin şəraitində dövlətimizin həyata keçirdiyi müxtəlif sosial proqramlar haqqında da məlumat verən Ə.Qarayev daha sonra Mədəniyyət Nazirliyi tərəfindən də 20-dən artıq layihənin həyata keçirildiyini qeyd edib. Misal olaraq "Evdə qal, evdə yarat" təşəbbüsü, "Bizi birləşdirən mədəniyyət", "Yaradıcılığı evdə öyrən" və digər layihələrdən danışan nazir onların mövcud şəraitdə xüsusi önəmini vurğulayıb.

Mövcud şəraitdə qlobal layihələrin əhəmiyyətindən söz açan nazir, həmçinin, bildirib ki, Azərbaycan UNESCO tərəfindən 15 aprel tarixindən etibarən açıq elan edilən "ResiliArt" qlobal hərəkatına fəal şəkildə qoşulub və bu hərəkatı ölkəmizin yaradıcı adamları arasında təbliğ etməkdədir.

Qeyd edək ki sözügedən hərəkat COVID-19 pandemiyasının mədəniyyət sahəsinə hərtərəfli təsiri barədə məlumatlılıq səviyyəsini artırmağı və incəsənət adamlarını bu böhran zamanı və böhrandan sonra da dəstəkləməyi hədəfləyir.

Koronavirus dünyada mədəniyyət tədbirlərini də iflic etdiyi bir dönəmdə Azərbaycan koronavirusun ölkəmizdə geniş yayılmasının qarşısının alınması istiqamətində həyata keçirdiyi tədbirlərlə, əslində, dünya dövlətlərini qabaqlayıb. A.X.Əbilovun sözlərinə görə, Azərbaycana aid maddi və qeyru-maddi mədəni irs nümunələrinin daxil edildiyi UNESCO ilə bu ağır dövrdə ölkəmizin əməkdaşlığı davam etdirməsi, virtual görüşdə pandemiya dövründə yaranan layihələri təqdim etməsi təqdirəlayiqdir. "Bu gün bütün bəşəriyyət koronavirus pandemiyasına görə karantin dövrünü yaşayır, bir sıra bütün sahələrdə tədbirlər virtual olaraq keçirilir. Pandemiya bütün dövlətlərin qarşısına bir sıra tələblər, şərtlər qoydu, onlardan ən əsaslarından biri tədbirlərin, görüşlərin virtual şəkildə keçirilməsi ilə bağlı idi. Açığını deyək ki, Azərbaycandan fərqli olaraq, bir çox dövlət virtual tədbirlərin keçirilməsinə, layihələrin gerçəkləşdirilməsinə hazır deyildi. Virtual məkanda fəaliyyətə hazır olmadıqları üçün dünyanın bir çox dövlətində pandemiya mədəniyyət tədbirlərini iflic etdi, layihələrin dondurulmasına səbəb oldu, ölkəmiz isə bu vəziyyətə hazır olduğu üçün, şəraitə uyğun layihələr hazırlamağa nail oldu. Azərbaycanın virtual məkana çevik adaptasiya olunmasının əsas səbəblərindən biri ölkədə pandemiya ilə mübarizə istiqamətində hazırlanan önləyici tədbirlər sırasına məhz bu virtual məkanda fəaliyyət qurmaq məsələsinin də daxil edilməsi idi".

A.X.Əbilov hesab edir ki, Azərbaycan dövlətinin vaxtında reallaşdırdığı elektron hökumət layihəsi, "ASAN xidmət" təsisatı, eləcə də internet xidmətləri bu kimi hallarda insanların köməyinə gəldi. Bu işlərə pandemiyadan əvvəl başlandığını deyən müsahibimizin sözlərinə görə, bu cür fors-major hallarda həmin o vasitələr insanların həyatına müsbət mənada təsir göstərib. O qeyd etdi ki, ali və orta məktəblərin, kitabxanaların, eləcə də mədəniyyətin digər sahələrinin, muzeylərin elektronlaşdırılması, bütövlükdə isə bu sahədə həyata keçirilən layihələr hazırda gərəkli olduğunu bir daha sübut edir. "Pandemiya dövründə Mədəniyyət Nazirliyinin, Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin, Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin, eləcə də digər aidiyyəti QHT-lərin, o cümlədən də kitabxana.net portalının bütün resursları ictimaiyyət üçün açıq elan edilib. Bu da gətirib ona çıxardı ki, insanlar evdə qala-qala virtual olaraq mədəniyyət hadisələrinin içində oldular. Bu istiqamətdə mütəxəssislər, KİV çox güclü maarifləndirici işlər apardılar.

Həm dövlət, həm də özəl qurumlar "Evdə qal" həştağı ilə müxtəlif virtual aksiyalar həyata keçiriblər. Ölkə muzeylərinə virtual səyahət layihəsindən tutmuş, tamaşalara, kitabxanalara qədər, kitabxanalarda oxucularla virtual görüşlərə qədər çoxsaylı tədbir keçirilib. Pandemiya dövründə müxtəlif virtual mədəniyyət tədbirlərinin keçirilməsi, o cümlədən də Mədəniyyət Nazirliyi tərəfindən 20-dən artıq layihənin gerçəkləşdirilməsi Azərbaycan mədəniyyətinin virtual qatının yaradılmasına xidmət edir. Düşünürəm ki, bu davamlı olmalıdır. Çünki artıq dünya virtuallaşır və bu baxımdan da mədəniyyət, incəsənət sahəsində də virtuallaşmaya xüsusi önəm verilməlidir".

**A.X.Əbilov bundan əlavə, Azərbaycan təhsilində virtuallaşmanı da qeyd etdi. O bildirdi ki, telekanallarda və xüsusi internet portallarında virtual, onlayn dərslərin keçirilməsi də dövlətimizin bu istiqamətdə hazırlıqlı olduğunun sübutudur.**

***İradə SARIYEVA***



*"Virtual məkanda fəaliyyətə hazır olmadıqları üçün dünyanın bir çox dövlətində pandemiya mədəniyyət tədbirlərini iflic etdi"*

№ 64 (4195) ■ Qiyməti: 40 qəpik

BAKI XƏBƏR

24 APREL 2020-ci il

www.baki-xeber.com

# Harvard alimlərindən ümidsiz proqnoz...



**Harvardın bir qrup alimi koronavirusdan sonra dünyanın nə zaman tam normala dönə biləcəyini açıqlayıb.**

"Milli.Az" xəbər verir ki, alimlərin proqnozları "Science" jurnalında yayımlanıb. Bildirilib ki, xəstəliyə qarşı bir peyvənd və ya yeni müalicə təklif olunmadığı təqdirdə, sosial təcrid tədbirləri 2022-ci ilə qədər çəkə bilər. Tədqiqatda deyilir ki, sosial məsafə, əlavə müdaxilələr, o cümlədən, təcili yardım və terapevtik müalicə imkanlarının genişləndirilməsi xəstəliklə mübarizənin müvəffəqiyyətini artıracaq və əhalidə immunitetin əldə olunmasını sürətləndirəcək. Lakin bu vəziyyətdə də infeksiyanın dirçəlişi 2024-cü ilə qədər mümkün ola bilər. Harvard alimləri pandemiyanın inkişafı üçün bir neçə ssenarinin müxtəlif kompyuter modellərini təhlil etdikdən sonra bu qənaətə gəliblər. Onların fikrincə, mövcud məhdudiyyətlərin vaxtından əvvəl ləğvi son nəticədə xəstəliyin ən yüksək həddə çatmasına və daha da dəhşətli nəticələrə səbəb olacaq. Bu yay xəstələrin azalmasına baxmayaraq, inanırlar ki, koronavirus payızda geri dönəcək və soyuq hava başlanğıcı ilə pisləşəcək. İnfeksiyaya qarşı vaksinlər isə bir ildən tez görünməyəcək və 2022-ci ilə qədər bizi "sosial xaric" olmağa məcbur edəcək.

Eyni zamanda, evdə qalıb karantini müşahidə etmək bir neçə mərhələli olacaq. Tədqiqatçılar yeni infeksiyanın baş verməsi səbəbilə bir çox ölkədə səhiyyə sisteminin dağılmasının qarşısını almaq üçün "sosial məsafə" praktikasının dəfələrlə tətbiq edilməli olduğunu təklif edirlər. Bu, peyvəndlərin axtarışı və yeni müalicə üsulları üçün vaxt verəcək. Bundan əlavə, Harvard alimləri hesab edirlər ki, 2024-cü ilə qədər kütləvi testlər aparmaq lazımdır. Alimlər kütləvi sınaqlara ehtiyac olduğunu söyləyirlər. Onların fikrincə, zərərçəkmişlərin sağlamlığının vəziyyəti və xəstə olanların immun sisteminin virusa nə qədər müqavimət göstərdiyi barədə əlavə məlumat verəcək seroloji testlərin istifadəsi xüsusi əhəmiyyət kəsb edir.

Epidemioloq və keçmiş ÜST direktoru Daniel Lopez Akuna görə, Harvard alimlərinin proqnozu "ekstremal ssenaridir". "Bu, virusun inkişafından asılı olacaq", - deyə o, İspaniyanın televiziya kanallarından birinə müsahibəsində bildirib. Onun fikrincə, peyvənd bir ildən sonra ortaya çıxsa, ssenari o qədər də acınacaqlı olmayacaq. Ancaq virusa peyvənd tapılmazsa və kütləvi şəkildə immunitet qazanılmazsa, özümüzü uzaqlaşdırmağa və kütləvi ictimai fəallığı azaltmağa məcbur olacağıq.

Azercell

## "Azercell"dən "BluTV" ilə sevdiyiniz türk filmləri yüksək keyfiyyətdə bir arada!

*"Azercell" "BluTV" xidmətini təqdim edir!*

**Yerli bazarın lider mobil operatoru "Azercell" rəqəmsal məhsullar portfelini genişləndirməyə davam edir. Bu dəfə "Azercell" şirkəti "BlutTV" ilə eksklüziv tərəfdaşlığa imza ataraq, son illər ərzində dünyada sürətlə populyarlıq qazanan türk kino və seriallarını abunəçiləri üçün əlçatan edir. Aprel ayının 21-dən başlayaraq "Azercell", "BluTV" vasitəsilə izləmə rekordları ilə seçilən türk kinemotoqrafiyasını, xüsusi olaraq "BluTV" üçün lentə alınan türk film və seriallarını smart-fonlara gətirir.**

Xidməti aktiv etmək qaydası çox sadədir: IOS, Android, PC və Smart TV əməliyyat sistemlərini dəstəkləyən "BluTV" tətbiqini yüklədikdən sonra, gündə 0.25 AZN ödəməklə günlük paketi və ya ayda 3 AZN ödəməklə aylıq paketi aktiv etmək mümkündür. Odur ki, xidmətə günlük qoşulmaq üçün Start gun açar sözünü 5550 qısa nömrəsinə göndərmək və ya telefonun ekranında *551#YES yığmaq kifayətdir. Aylıq paketi aktiv etmək üçün isə Start ay açar sözünü 5550 qısa nömrəsinə göndərmək və ya ekranda *554#YES yığmaq lazımdır. Onu da qeyd edək ki, "Azercell"in "BluTV" xidməti çərçivəsində aylıq abunəliyə ilk dəfə qoşulan müştərilərə xidmətdən 7 günlük pulsuz istifadə imkanı təqdim edilir.

"Azercell"dən "BluTV" ilə sevdiyiniz seriallar, məkandan və zamandan asılı olmayaraq, indi sizin telefonunuzda!

Xidmət haqqında ətraflı məlumat üçün: https://www.azercell.com/az/personal/services/partner_services/blutv/ səhifəsinə daxil olun.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

## Bildiriş

Ailə məsələlərinə görə məhkəmə.
Təl-Əviv. İsrail.
İddiaçı: Avraem Albina.
Cavabdeh: Rəhman Sadikov-a qarşı.
KƏBİNİN POZULMASI ÜÇÜN MƏHKƏMƏYƏ DƏVƏT.

İddiaçı məhkəməyə 32441-11-19 nömrəli ərizəylə boşanmaq üçün müraciət etmişdir. Əgər sizin müdafiə olunmaq fikriniz varsa, bu elan dərc olunan gündən sonrakı 60 gün içində yazılı şəkildə bu məhkəməyə müraciət edə bilərsiniz.

Əgər yazılı müraciət etməsəniz, iddiaçı məhkəmənin qərarını sizin iştirakınız olmadan alma haqqına sahibdir.





**Qoç** - Ailə imkanlarını və yaşam şərtlərini yaxşılaşdırmaq bu gün xüsusi maraq dairənizdədir. Lakin bəhs etdiyimiz istiqamətlərdə hansısa konrkret addımlar atmaq istəyində uğursuzluğa düçar olmaq ehtimalı böyükdür.



**Buğa** - Ailə üzvləri ilə danışmaqdan, ağıllı bildiyiniz insanlardan məsləhət almaqdan çəkinməyin. Təkrar müzakirə sizə ilkin planlara dəyişikliklər etməyə imkan verər.



**Əkizlər** - Aramlı davranış və düşüncə tərzini müvəqqəti də olsa, unudun. Operativ, çevik, cəsur olun, istək və arzularınızdan çəkinməyin. Yaxın qohumların yardımlarına tam bel bağlamağa dəyməz: belə hərəkətlər uğur gətirsə də, baş ağrısı yaradacaq.



**Xərçəng** - Valideynləriniz və ailə üzvlərinizlə mübahisələr mümkündür. Prinsipial məsələlərdə razılığa rəğmən, xırda məqamlarda onlar sizi anlamırlar. Ola bilər ki, mübahisələr ciddiləşsin.



**Şir** - Maliyyə işlərində problemlər mümkündür. Əgər maliyyə problemlərinizi düşünürsünüzsə, borc aldığınız pulları unutmayın. Ailə üzvləriniz etiraz etsələr də, borcu qaytarmağa can atın.



**Qız** - Gündəlik işləri yerinə yetirəndə onlardan bəzilərini orijinal şəkildə gerçəkləşdirmək istəyəcəksiniz. İstəklərinizi realaşdıranda anlaşılmazlıq və inadkarlıqla qarşılaşmağa hazır olun.



**Tərəzi** - Çalışdığınız adamlar tələblərinizi anlamayacaqlar. Ətrafdakı insanların sizi sıxışdırmağa çalışdıqlarını düşünəcəksiniz. Səhhətinizdə, müalicədə, həkimlərlə söhbətlərdə problemlər yarana bilər.



**Əqrəb** - Uzaqdakı aldamlarla əlaqələr yaratmaq, təhsil və imkanları artırmaq günüdür. Biznesdə etibarlı və nüfuzlu müttəfiqlər qazanmağa çalışın. Ətrafdakı insanlara, o cümlədən uşaqlara təsir imkanlarını artırmağa səy göstərəcəksiniz.



**Oxatan** - Demokratik və açıq olun. Təşəxxüs, lovğalıq və mənəm-mənəmlikdən uzaq qaçın. Bütün bunlar ünsiyyətə mane olacaq. Dostlar, tərəfdaşlar, müəllimlərin dediklərinə diqqətlə qulaq asın.



**Oğlaq** - İşlər üçün uğurlu gündür. Çalışdığınız kollektiv və təşkilatı uğurla təmsil edə bilərsiniz. Qatıldığınız iş və ya layihə sizə avantüra təsiri bağışlaya bilər, amma son nəticə yaxşı olacaq, kim olduğunuzu da tez başa düşəcəklər.



**Dolça** - İdeya və planları götür-qoy etmək üçün əlverişli gündür. Sizə maraqlı məlumatlar, təhlil üçün bilgi verə biləcək adamlarla əlaqə saxlayın. Məqsədəuyğun deyil, gərəkli adamlarla əlaqə saxlaya bilməyəcəksiniz, çünki onlar bu gün sizinlə danışa bilməyəcəklər.



**Balıqlar** - Valideynləriniz sizin qohumlarınızla görüşməyinizə mane olmağa çalışacaqlar. Bəzi tanışlıqlarınız da onları təlaşlandıracaq. Qısa səfərlərdə manelər və problemlər ola bilər, amma onlar tez həllini tapacaq.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## NASA mütəxəssisləri "Curiosity"ni evdən idarə edirlər

**Koronavirus pandemiyasına görə hər gün evdən işləyən mütəxəssislərin sayı artır. Tarixə nəzər salsaq, altı ay əvvəl NASA mütəxəssislərinin "Curiosity"ni məsafədən, daha doğrusu, evlərindən idarə edəcəkləri heç kimin ağlına gəlmirdi.**

"Ted.az" bildirir ki, NASA-nın rəsmi saytında yayılan məlumata görə, müəssisənin mütəxəssisləri məsafədən iş rejiminə keçiblər.

Təxminən 20 nəfərdən ibarət qrup yuxarıda qeyd olunan sistemin idarəsinə cavabdeh olaraq təyin olunub və evdən iş rejiminə keçiblər.

Komanda üzvləri iş üçün lazım olan bütün avadanlıqlarla təchiz olunublar.

**Lakin bəzi avadanlıqlar daha sadə cihazlarla əvəz olunub. Məsələn, innovativ 3D eynəklər əvəzinə, mütəxəssislər adi qırmızı-mavi 3D eynəklərdən istifadə edirlər.**

*Hazırladı: Namiq QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*
Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*
*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**
Qəzet həftədə 5 dəfə çıxır.
(Bazar və bazar ertəsindən başqa).
«BZ»-də çap olunur.
*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.